

## Baş nazirdən Azərbaycan-Ermənistan sərhədi ilə bağlı qərar

Nazirlər Kabineti "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə yaradılmış Dövlət Komissiyasının fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər barədə" qərar verib. "Unikal" xəbər verir ki, qərara əsasən, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə...

Səh.2


# UNİKAL

№38 (2123) 14 Oktyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Teymur Musayevdən narazılıq artır

### Yeni nazir "köhnə hamam, köhnə tas" prinsipi ilə işləmək fikrindədir?

Son günlər ictimaiyyət arasında Səhiyyə Nazirliyi ilə bağlı tənqidi fikirlərin intensivləşdiyi müşahidə olunur. Bu tənqidlər, irad və narazılıqlar isə Oqtay Şirəliyevin nazir postunu tərk etməsindən sonra bu qurumun fəaliyyətində müsbətə doğru köklü dəyişikliklərin yaşanacağına dair yaranan ümidləri kəskin azaldıb. Son günlər ölkədə müşahidə olunan dərman qıtlığı isə Səhiyyə Nazirliyinin ünvanına səslənən tənqidlərin miqyasını da, dozasını da artırdı. Belə ki, sözügedən problem artıq Milli Məclis səviyyəsində müzakirə predmetinə çevrilib.

Səh.5



Səh.2

## Əliyevlə Putinin görüşündə mühüm mesaj: "Uzun müddətli sülhə hədəflənmişik"

## "Qiymət artımı bəzi işbazların əməlidir"



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev "Unikal"a müsahibə verib. Komitə sədri ərzaq qiymətlərinin artmasından, son günlər dana və quzu ətinin bahalaşmasından, dünya bazarlarında buğdanın qiymətinin yüksəlməsinin ölkəmizə necə təsir edəcəyindən...

Səh.4

## Ermənistan sülh sazişini imzalamaqdan qaça bilməyəcək



Xəbər verildiyi kimi, Brüsseldəki son görüşdən sonra Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasının qısa müddətdə mümkün olması barədə açıqlama verdi. Ölkə başçısı bildirdi ki, Ermənistan rəhbərliyi ortaya siyasi iradə qoyarsa...

Səh.9

## Elman Rüstəmov yenidən tənqid hədəfində



Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri ilə bağlı narazılıqların ardı-arası kəsilmir. Sıravi vətəndaşlardan tutmuş bir çox müstəqil iqtisadçılaradək cəmiyyətin müxtəlif kəsimlərindən mütəmadi şəkildə həmin şirkətlərlə bağlı şikayətlər, tənqidi rəylər eşitmək olar. Hesab edilir ki...

Səh.8

# Səidə ilə Natavan barışdı



***Müğənnilər Səidə Sultan və Natavan Həbibi uzunsürən küsülülükdən sonra barışıblar.***

Barışıq müğənni Kərim Abbasovun oğlu üçün təşkil etdiyi kiçik toy məclisində olub.

İfaçılar qucaqlaşıblar, bununla da küsülülüyə son qoyublar.

Qeyd edək ki, daha əvvəl S. Sultan müsahibələrinin birində N. Həbibi ilə artıq yaxın rəfiqə olmadıqlarını və hər şeyin bitdiyini açıqlamışdı.

Onlar ayrı-ayrılıqda Xalq artisti Röya Ayxanla küsülüdür.

# Vəkil Səbinəni aldadıb, pullarını belə alıbmış

***İki gün öncə Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən 8 il həbs cəzası alan keçmiş vəkil Vüqar Səfərlinin məşhur bloqer Səbinə Kətanovanı necə aldatdığı məlum olub.***



“Unikal” “Qafqazinfo”ya istinadən xəbər verir ki, 17 nəfərə qarşı ümumilikdə 200 min manatdan çox dələduzluq edən sabiq vəkilin ən böyük dələduzluğu (130 min manat) məhz Kətanovaya qarşı olub.

Məhkəmə istintaqında aydın olub ki, bloqer 2021-ci ildə Bakıda yeni tikili binadakı mənzilini 140 min manata satıb. Özünə Mərdəkanda 6 sot torpaq sahəsi alıb. Lakin torpaq sahəsini aldıqdan sonra ev tikdirməyin çətin olduğunu görüb satdığı evi geri qaytarmaq istəyib. Bundan sonra evi alan şəxslə görüşüb 140 mini və mənzilə çəkdiyi əlavə xərcləri də ödəməyə hazır olduğunu bildirib. Qarşı tərəf təkliflə razılaşmadığı üçün işi məhkəmədə həll etmək qərarına gəlib.

S.Kətanova ifadəsində qeyd edib ki, bundan sonra vəkil Vüqar Səfərliyə müraciət edib:

“Təxminən 4-5 il əvvəl instaqramdan Vüqar Səfərli mesaj yazaraq vəkillik işi ilə nə qulluğu olarsa, həll edə biləcəyini demiş, nömrəsini qeyd etmişdi. Mən də nömrəni həmin vaxt telefonuma yazmışdım. Vüqara zəng edərək evi geri almaq qanuni yolla mənə kömək edə biləcəyini bildirdi. Onunla ofisində görüşdüm. Həmin gün hüquqi yardım göstərilməsi haqqında onunla müqavilə bağladıq. Vüqara 1200 manat verdim, qalan 800 manatı işin yekununda ödəyəcəyimi bildirdim”.

Məlum olub ki, bir gün vəkil zəng edərək evi geri almaq üçün ipoteka fonduna 22 min manat yatızdırmaq lazım olduğunu deyib. S.Kətanova da anasıyla birlikdə pulu ona verib. Daha sonra V.Səfərli 2 dəfə yenə də ipoteka fonduna qoymaq məqsədilə əlavə olaraq hər dəfə ondan 50 min manat alıb. Bloqer son iki dəfədə isə vəkilə 5 min və 3500 manat vedib. Katanova hər dəfə pul verəndə vəkildən iltizam alıb pulların şəkillərini çəkib. Lakin daha sonra müdafiəçinin onu müxtəlif bəhanələrlə aldatdığını görərək şikayət edib.

Vüqar Səfərli törətdiyi əməllərdən sonra Vəkillər Kollegiyasından uzaqlaşdırılıb və barəsində cinayət işi başlanaraq həbs edilib.



# Şəbnəm Tovuzlu 350 min manata yeni avtomobil aldı

***Müğənni Şəbnəm Tovuzlu özünə yeni, lüks avtomobil alıb.***

Bu haqda sənətçi qonaq olduğu ”Həmin Zaur” axşam şou-sunda deyib. Şəbnəm bildirib ki, ağ rəngdə lüks nəqliyyat vasitəsini həyat yoldaşı Həci yox, özü alıb: ”Mən bütün ayı və ili xalqımızın gözəl məclislərində çıxış etdim. Özüm qazanan qızam. Avtomobili də özüm almışam”.

Verilişin aparıcısı Zaur Kamal isə Ş.Tovuzlunun avtomobili 350 min manata aldığını vurğulayıb.

Daha sonra studiyada quraşdırılmış monitorda müğənninin kanalın girişində park etdiyi avtomobilinin görüntüləri nümayiş olunub. Ağ rəngli ”Range Rover” markalı maşının dövlət nömrə nişanı isə ”77-CS-077”- dir.

# Lalə Məmmədova buna görə Türkiyəyə getdi

***Əməkdar artist Lalə Məmmədova yeni klipi üçün Türkiyəyə yollanıb.***



“Unikal” axşam.az-a istinadən xəbər verir ki, müğənni yeni albom üzərində işləyir. Sənətçinin səfərinin məqsədi də orada klip çəkdirməkdir. Məmmədova ekran işini Orcun Mutluya həvalə edib.

Kover mahnılardan ibarət olacaq ”Rock Cuba” dekabrda işıq üzü görəcək. L.Məmmədovanın stili üzərində Elnur Həsənov çalışıb.

# Aşıq Namiq qəzaya düşüb



***Bakının Nizami rayonunda yol-nəqliyyat hadisəsi baş verib. Hadisə Babək prospektində qeydə alınıb.***

”Toyota” markalı maşını idarə edən Hüseynov Namiq Fərhad oğlu işıqforun qırmızı işığında dayanan zaman ”Azsamand” markalı nəqliyyat vasitəsini idarə edən şəxs yüksək sürətlə maşını əvvəlcə ”Renault” markalı avtomobilə çırpıb. Daha sonra ”Azsamand” Namiq Hüseynova məxsus ”Toyota”ya dəyərək dayanıb.

Qəza nəticəsində ”Renault” markalı nəqliyyat vasitəsində olan iki nəfər xəsarət alıb.

Hadisə yerinə təcili tibbi təxirəsalınmaz yardım xidmətinin əməkdaşları cəlb edilib. Yaralılar 3 nömrəli xəstəxanaya aparılıb.

”Toyota”nı idarə edən Aşıq Namiq bildirib ki, ”Azsamand”ın sürücüsü sürət həddini aşıb.

Hadisə yerinə Nizami Rayon Polis İdarəsinin əməkdaşları cəlb edilib.



## İki min müəllimdən biabırçı nəticə - Emin Əmrullayevdən etiraf

***“Müəllimlərin sertifikasiya imtahanlarında iştirak edən 11 min müəllimdən iki mini kvadratın perimetri veriləndə onun sahəsini hesablaya bilmir”.***

“Unikal” xəbər verir ki, bunu REAL TV-yə müsahibəsində elm və təhsil naziri Emin Əmrullayev deyib.

Nazirin sözlərinə görə, ilk dəfə keçirilən müəllimlərin sertifikatlaşdırılması imtahanlarının nəticəsi onu deməyə əsas verdi ki, Azərbaycan müəllimlərinin əksəriyyəti öz peşəsinə yararlıdır:

“Lakin bir qrup müəllim də oldu ki, bu gün tədrisi aparmaqla bağlı müəyyən bacarıqlarında problemləri var. Bu zaman sual ortaya çıxır ki, müəllim öz fənnini bilmirsə, onda sinif otağındakı azyaşlı şagirdə nə öyrədəcək?”

E.Əmrullayev hesab edir ki, çox ciddi problemlə üz-üzəyik: “Problem ondan ibarətdir ki, imtahanda iştirak edən 11 min müəllimdən 2 mini kvadratın perimetri veriləndə onun sahəsini hesablaya bilmir. Burada güzəşt etmək mümkündürmü? Əlbəttə, yox. Təhsildəki bu tip güzəştlər Vətənə xəyanətdən daha ciddi problemdir. Yəni öz fənnini bilməyən müəllim 6 yaşlı uşağın gələcəyini əlindən alırsa bundan pis nəsə təsəvvür edə bilmirəm”.

Qeyd edək ki, sertifikatlaşdırmadan keçən 3086 təhsilverən vəzifə maaşına 35 faiz, 5 590 müəllim isə 10 faiz əlavə alır.

## Bakı Fransanın vasitəçiliyindən imtina etməlidir - ŞƏRH

***Fransa prezidenti Makronun “France 2” telekanlına müsahibəsində Ermənistanı sona qədər tək qoymayacaqlarını bəyan etməsi göstərir ki, bu ölkənin Bakı-İrəvan münasibətlərinin normallaşmasında vasitəçilik etməsi qəbul oluna bilməz, çünki Fransa tərəf olduğunu ən yüksək səviyyədə bəyan edir.***

“Unikal” xəbər verir ki, bunu siyasi təhlilçi Asif Nərimanlı Emmanuel Makronun Ermənistanı müdafiə, Azərbaycanı ittiham etməsinə münasibət bildirərkən deyib.

“Müsahibədə əsas diqqətçəkən məqamlardan biri isə Azərbaycanın Avropaya qaz satmasının heç bir “güzəştə” əsas vermədiyi haqda dedikləridir.

“Fransa Azərbaycandan qaz almır, bir neçə Avropa ölkəsi ilə qaz razılaşmaları var. Mən Fransa və Avropanın mövqeyi haqda deyə bilərəm ki, “bizim dəyərlərimiz və prinsiplərimiz” nə qazla, nə neftlə satın alınmır”, - Makron deyib.

Bununla “Azərbaycana qarşı sanksiyaları nəzərdən keçirmədiklərini” deyən Avropa İttifaqının beynəlxalq məsələlər üzrə ali komissarı Josep Borelə cavab verir və Bakıya qarşı cəbhəni gücləndirəcəklərini elan edir. Gələn ay Fransa senatı Azərbaycana qarşı sanksiyaların tətbiqini müzakirə edəcək. İstisna deyil ki, Fransa hökuməti təzyiq xarakterli qərarların qəbuluna çalışacaq”, - deyə siyasi analitik bildirib.

# Elman Rüstəmov yenidən tənqid hədəfində

## Bir çox məmurların himayəsində olan sığorta şirkətləri ilə bağlı narazılıqlar səngimək bilmir

***Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri ilə bağlı narazılıqların ardı-arası kəsilmir. Sıravi vətəndaşlardan tutmuş bir çox müstəqil iqtisadçılaradək cəmiyyətin müxtəlif kəsimlərindən mütəmadi şəkildə həmin şirkətlərlə bağlı şikayətlər, tənqidi rəylər eşitmək olar. Hesab edilir ki, vətəndaşlar isə sığorta bazarından razı olmadıqları üçün bu sahəyə o qədər də maraq göstərmirlər.***

Son vaxtlar sığorta şirkətlərini tənqid edənlərin sırasına isə millət vəkilləri də qoşulub. Məsələn, millət vəkili Razi Nurullayev parlamentin son iclaslarından birində bildirib ki, “Azərbaycanda xeyli sayda sığorta şirkəti olsa da, vətəndaşların bu xidmətdən narazılığı çoxdur”.

Onun sözlərinə görə, xüsusilə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası ilə bağlı sığorta şirkətlərindən ödəniş almaq çətindir: “Bu cür sığorta hadisələri zamanı şirkətlər əlindən gələni edir ki, ya ödəniş etməsin, ya da az məbləğ ödəsin. Mən özüm də xeyli müddət əvvəl sığorta şirkətlərindən biri ilə bu cür hal yaşadım. Rəhbərliklə danışmaq istədim, telefona bir qız cavab verdi, bilmədim canlıdır, yoxsa robot. İnsanlar tanıyıram ki, onları bezdirdiklərinə görə sığorta ödənişindən imtina ediblər”.

Bir müddət əvvəl isə başqa bir millət vəkili - Fəzail Ağamalı da sığorta bazarındakı nöqsanlara diqqət çəkmişdi. “Azərbaycanda sığorta şirkətləri var, amma onlar üzərlərinə düşən işi lazımınca yerinə yetirmirlər. Xalqın sığorta şirkətlərinə inamı çox aşağıdır” deyən Ağamalı bildirmişdi ki, ticarət mərkəzlərindən birində baş vermiş yanğının vurduğu ziyanın ödənilməsini dövlət üzərinə götürüb: “Amma bu, həmişəlik belə ola bilməz. İnkişaf etmiş ölkələrdə olduğu kimi sığorta sistemi işə salınmalıdır, institut kimi formalaşmalıdır”.

Deputatın sözlərinə görə, bir çox hallarda sığorta şirkətləri sığorta olunan əmlaklara dəyən ziyanın ödənilməsi ilə bağlı problemlər yaradır: “Təklif edirəm ki, dünyanın sığorta şirkətlərinin mütəxəssisləri ölkəyə dəvət olunsun, onların təcrübəsindən istifadə edilsin”.

Xatırlatmaq yerinə düşər ki, bir neçə ay öncə Azərbaycan Mərkəzi Bankının Baş direktoru Ziya Əliyev müsahibəsində bildirmişdi ki, hər il 3 minə yaxın sığortaçı hüquqlarının pozulması səbəbilə Mərkəzi Banka müraciət göndərir. Əksər mütəxəssislərin fikrincə, bu, kifayət qədər yüksək rəqəmdir və yerli sığorta şirkətlərinin öz fəaliyyətlərini yetərincə düzgün qura bilməməsinin göstəricisidir. ”Belə davam edərsə, biz gələcəkdə bu cür şikayətlərin sayının daha da yüksələcəyinin şahidi olacağıq” deyə ekspertlər narahatlıqla vurğulayırlar.

Beləliklə, hazırda ölkənin sığorta bazarının durumu ürəkaçan deyil və sözügedən sahədə ciddi problemlər müşayiət olunmaqdadır. Ekspertlərin fikrincə, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin bir çoxu iri məmurlarla bu və ya digər şəkildə bağlıdır, onlar tərəfindən himayə edilir. Nəticədə həmin şirkətlər arxalarındakı ”güclü əl”ə arxayın olaraq qanunlardan kənara çıxmağa, vətəndaşları incitməyə çəkinmirlər, qısası, cəzasız qalacaqlarından əmindirlər. Bu isə sığorta bazarı ilə bağlı inamsızlığın formalaşmasına gətirib çıxarır.

Digər tərəfdən isə sığorta bazarındakı çoxsaylı nöqsanlar Mərkəzi Bankın (AMB) keçmiş rəhbərliyinin qeyri-effektiv fəaliyyəti ilə də birbaşa əlaqələndirilir. Qeyd olunur ki, sözügedən sahədə real durum ölkənin sığorta bazarında sağlamlaşdırma addımlarının atılması üçün zamanın çoxdan çatdığını göstərirdi. Lakin Elman Rüstəmovun AMB sədri olduğu illərdə belə addımlar ya ümumiyyətlə atılmayıb, ya da qeyri-effektiv, səmərəsiz olub. Sabiq baş bankir və komandası isə bütün bunları müşahidə etməklə kifayətlənib, halbuki onun rəhbərlik dövrü sığorta şirkətlərinin öz fəaliyyətini müasir standartlara uyğun şəkildə qurmasının təmin olunması baxımından kifayət qədər uzun zaman kəsimi idi...



O da maraqlıdır ki, Rüstəmov sadə vətəndaşlardan, iqtisadçı ekspertlərdən və deputatlardan fərqli olaraq Azərbaycanın sığorta bazarı barədə yüksək fikirdə idi. Hətta iki il öncə o, jurnalistlərə açıqlamasında yerli sığorta bazarında vəziyyəti ümumilikdə sabit qiymətləndirmiş, sadəcə ”bəzi nöqtə kimi problemlər”dən bəhs eləmişdi.

Ən maraqlısı isə AMB-nin keçmiş sədrinin “2020-ci ildə sığorta bazarının canlandırılmasına çalışacağıq demesi idi. Sığorta sektorunun həm biznes, həm əhalinin risklərini əhatə etməsi üçün işləyəcəyik. Bu, bazarın inkişafı və risklərin azalmasına səbəb olacaq. Hökumət tərəfindən qarşıya qoyulan əsas şərt ondan ibarətdir ki, sığorta şirkətləri problemləri müstəqil olaraq həll etsinlər, dövlətin üzərinə qoymasınlar” sözləri idi. Belə anlaşılırdı ki, Rüstəmov digər məsələlərdə olduğu kimi, sığorta mövzusunda da gecikmiş qənaət və tələblərlə çıxış edir, üstəlik, hələ də vəd verməyi yetərli sayır. Görünür, sabiq baş bankirin məhz bu gecikmələri onun səlahiyyət müddəti başa çatmadan vəzifəsindən kənarlaşdırılması ilə nəticələndi.

O ki, qaldı sığorta bazarındakı çoxsaylı nöqsanlara, ümid edək ki, AMB-nin yeni rəhbərliyi bu sahədə tam sağlamlaşdırmaya nail ola biləcək...

***Hüseyn İsgəndərov***

# Ermənistan sülh sazişini imzalamaqdan qaça bilməyəcək

## Rəsmi İrəvanın sərhədlərin delimitasiyasından sonra yekun sənədi imzalamaqdan başqa yolu yoxdur

***Xəbər verildiyi kimi, Brüsseldəki son görüşdən sonra Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasının qısa müddətdə mümkün olması barədə açıqlama verdi. Ölkə başçısı bildirdi ki, Ermənistan rəhbərliyi ortaya siyasi iradə qoyarsa, bu ilin sonuna kimi sülh sazişi imzalana bilər.***

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bişkekdəki çıxışı zamanı deyib ki, Azərbaycan sülh sazişinin genişləndirilmiş elementlərini Ermənistana verib. Erməni tərəfi indi həmin elementlərə baxır. Bayramov bildirib ki, genişləndirilmiş elementlər əvvəllər təqdim olunan 5 əsas prinsipi tamamlayır və bu, sülh sazişinin və Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasının



əsasını təşkil etməlidir: "Azərbaycan Ermənistanla danışıqların gedişində, xüsusən də sülh sazişinin imzalanmasında, rabitə kanallarının açılmasında və Ermənistan-Azərbaycan sərhədinin demarkasiyasında maraqlıdır. Görüşlərdə bu məsələlər daim qaldırılır və Azərbaycan öz mövqeyini ortaya qoyur". Bayramov əlavə edib ki, oktyabrda Brüsseldə Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası üzrə komissiyanın üçüncü iclasının keçirilməsi planlaşdırılır.

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib ki, hazırda əsas gündəmləri Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqlarının müzakirəsi üçün beynəlxalq mexanizmin necə yaradıla biləcəklərindən ibarətdir: "Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin ilk görüşünü dövlət katibi Entoni Blinken təşkil etdi, daha sonra ABŞ Prezidentinin təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan mənimlə Azərbaycan Prezidentinin köməkçisi arasında görüş təşkil etdi və biz burada əsasən bir sıra məsələləri müzakirə etdik. Qarabağ məsələsinə gəlincə, əsas gündəm Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqlarının müzakirəsi üçün beynəlxalq mexanizm necə yarada biləcəyimizdən ibarət idi. Ümid edirik ki, prosesdə biz bu beynəlxalq mexanizmi formalaşdıra biləcəyik ki, Azərbaycanla hüquq və təhlükəsizlik məsələləri ilə bağlı müzakirələr aparmaq imkanı olsun". Qriqoryan deyib ki, onlar həmçinin qrafiki ilin sonuna qədər müəyyən edilən sülh sazişinin şərtlərini, o cümlədən delimitasiya məsələsini müzakirə ediblər. "Yeni ilin sonuna qədər bizim sülh sazişimiz olmalıdır və bir də var idi ki, ilin sonuna qədər delimitasiya aparılsın, yəni sülh sazişi ilə delimitasiya bir-biri ilə bağlıdır" deyə Qriqoryan bildirib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a açıqlamasında deyib ki, Ermənistanda fövqəladə hal baş verməsə, bu ölkənin indiki rəhbərliyi mövqeyindən geri çəkilməzsə, ilin sonuna qədər Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması mümkündür. Deputat bildirib ki, sülh müqaviləsi genişətrkibdə olmayacaq: "Anlaşılan odur ki, sülh müqaviləsi bir neçə prinsipdən ibarət olacaq. Bu, sərhədlərin tanınması, ərazi bütövlüyünün qəbul edilməsi, diplomatik əlaqələrin qurulması, hərbi toqquşmaların qarşısının alınması üçün mexanizmin qurulması və s. Hər iki ölkənin maraqlarına cavab verən müəyyən prinsipləri elan edir. Sonradan isə elan edilən prinsiplər ətrafında əlavə işlərin görülməsi nəzərdə tutulur. Bununla bağlı birinci addım atılıb. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Delimitasiya, demarkasiya uzun və gərgin işdir. Ermənistanın bu məsələyə ciddi yanaşması olarsa, buna başlayıb sona çatdırmaq olar. Azərbaycan öz tərəfindən hazırdır. Ermənistan isə hələ də seçimini edə bilmir. Bu gün elan etdiyini sabah imtina edir, bir rəhbərin fikri ilə ziddiyyət təşkil edir. Seçim onlarındır".

A.Mirzəzadə qeyd edib ki, məsələnin uzanması Ermənistanın ziyanınadır: "Bunu onların daxili və xarici siyasi dairələri dərk etməlidir. Problemin həll edilməməsi Ermənistanın daxilində vətəndaş qarşıdurmasına, iqtisadiyyatın zəifləməsinə, sosial məsələlərin ağırlaşmasına, əhalinin bu ölkədən köçüb getməsinə səbəb olur. Onlar bu faktorları nəzərə alıb bir nəticə çıxarmalıdırlar".

Deputat Tahir Kərimli isə Ermənistanın Azərbaycanla ilin sonunadək sülh müqaviləsi imzalamaq niyyətində olması barədə verilən açıqlamalara münasibət bildirərkən deyib ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ilin sonuna qədər sülh sazişinin imzalanacağı ehtimalını irəli sürməsi boş yerə deyil. Onun fikrincə, buna yəqin ki, Baş nazir Nikol Paşinyan da prinsipial razılıq verib. Onun sözlərinə görə, təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüssel və Praqa görüşlərində bildirmişdi ki, Ermənistan öz razılaşmasına sadiq olsa, ilin sonuna qədər sülh sazişinin imzalanması mümkündür. Deputatın sözlərinə görə, təbii ki, Azərbaycanı sevməyən qüvvələr bundan çox narahat olublar: "Həmin qüvvələr xüsusilə Paşinyanın dördtərəfli görüşdə Azərbaycanın ərazi bütövlüyünü tanınması sənədinə imza atmasından çox rəncidə olublar. Xoş məsələ ondan ibarətdir ki, İran Fransa və digər qüvvələrin Azərbaycan-Ermənistan sərhədində nümayəndə yerləşdirməsi niyyətinə qarşı çıxıb. İlk dəfədir ki, İran açıq-dan-açığa Ermənistana qarşı öz mənfi fikrini bildirib".

T.Kərimli rəsmi Moskvanın da Bakı və Yerevan arasında olan üçtərəfli razılaşmanın həyata keçirilməsinə, sülh sazişinin imzalanmasına razı olduğunu bəyan etdiyini xatırladıb: "Rəsmi olaraq, sülh sazişinin imzalanmasına qarşı çıxan yoxdur. Təbii ki, bunu pozmaq istəyənlər olacaq. Lakin güman edirəm ki, sülhün imzalanması realdır". Deputat bu ayın sonunda Azərbaycan və Ermənistan nümayəndələrinin görüşündə iki dövlət arasında sülh sazişinin imzalanacağını, delimitasiya və demarkasiya məsələlərinin də öz həllini tapacağını güman edir.

***Z.Məmmədli***



## Ərdoğan və Putin bu məsələlərdən danışdılar

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin Astanada bir araya gəliblər.***

"Unikal" xəbər verir ki, Türkiyə və Rusiya liderlərinin görüşü 1,5 saat davam edib.

Rusiya prezidenti Vladimir Putin Astanada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə "Türk axını" boru kəmərini partlatmağa cəhd edilməsindən danışıb. Putin bu cəhdlərin uğursuz olduğunu vurğulayıb. "Şükür Allaha, bu baş vermədi, "Türk axını" uğurla işləyir", - Putin bildirib.

Onun sözlərinə görə, Rusiya və Türkiyə arasında yüksək səviyyəli ünsiyyət yaxşı nəticələr verir.

Putin xatırladıb ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın avqustda Soçiyə səfəri zamanı əldə olunan bütün razılaşmalar həyata keçirilir.

"Sanitar və siyasi məhdudiyyətlərlə bağlı bütün çətinliklərə baxmayaraq, biz müntəzəm olaraq görüşmək və ünsiyyət qurmaq üçün imkanlar tapırıq. Bu, yaxşı nəticələr verir, qeyd etməliyəm ki, bu ilin avqustunda Soçiyə səfəriniz zamanı əldə edilmiş bütün razılaşmalarımız, yerinə yetirildi", - Putin bildirib.

Ərdoğan isə deyib ki, Türkiyə və Rusiya Federasiyası Rusiyanın kənd təsərrüfatı məhsullarına ehtiyacı olan ölkələri dəqiqləşdirmək üçün birgə işləyə bilər.

"Rusiya məhsullarına ehtiyacı olan ölkələri müəyyən etmək üçün birlikdə işləyə bilərik. Məhsulların dəqiq ehtiyacı olan ölkələrə çatdırılması bizim üçün vacibdir. Türkiyə və Rusiya Federasiyasının bu birgə addımları bəzi tanınmış dairələri narahat etsə belə, bu, bizim üçün vacibdir. Bu addım ehtiyacı olan ölkələri sevindirəcək, bizim qətiyyətimiz, həmkarlarımızın bununla bağlı danışıqları çox önəmlidir, əlaqələrimizi gücləndirəcək", - Türkiyə lideri bildirib.

***Ağarza***

## Tehran Moskvaya qarşı sanksiyaları cinayət hesab edir

***Tehran Moskvaya qarşı sanksiyaları cinayət hesab edir.***

"Unikal" xəbər verir ki, bunu İranın neft nazirinin müavini Əhməd Əsədzadə deyib.

"Rusiyaya qarşı sanksiyalar bəşəriyyətə qarşı cinayətdir, lakin o, Rusiya Enerji Həftəsində çıxış edərək, daha böyük birlik üçün imkan yaradır", - nazir müavini bildirib.

Qeyd edək ki, oktyabrın 12-14-də Moskvada Rusiya Enerji Həftəsi keçirilir.

# İlham Əliyev İran Prezidenti ilə görüşdü



***Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.***

”Unikal” xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

# MDB Dövlət Başçıları Şurasının növbəti iclası Bişkekdə keçiriləcək



***MDB Dövlət Başçıları Şurasının növbəti iclası 2023-cü il oktyabrın 13-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində keçiriləcək.***

“Unikal” Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov bildirib.

”MDB liderləri 2023-cü il yanvarın 1-dən təşkilatda sədrliyin Qırğız Respublikasına keçməsi ilə bağlı qərar qəbul edəcəklər (Qazaxıstan və Rusiya həmsədr olacaq). Qırğız Respublikası MDB dövlət başçılarının Bişkekdə keçiriləcək növbəti sammitinin 13 oktyabr 2023-ci il tarxində keçirilməsini təklif edib. Bu təkliflərin təsdiq ediləcəyini gözləyirik”, - o deyib.

Bundan əlavə, 2023-cü il yanvarın 1-dən İcraiyyə Komitəsinin sədri - MDB-nin icraçı katibi Sergey Lebedevin səlahiyyətlərinin daha üç il müddətinə uzadılması barədə qərarın təsdiqlənməsi gözlənilir.

Uşakovun sözlərinə görə, Astana iclasının iştirakçıları həmçinin 2024-2026-cı illər üçün MDB-də tematik illəri müəyyənləşdirəcək, həmçinin 2023-cü ildə MDB-nin mədəniyyət paytaxtını seçəcəklər.

“Burada Sankt-Peterburqun namizədliyinə baxılır. Bu təklifin də dəstəklənəcəyi gözləyirik”, - o əlavə edib.

# AŞPA Rusiyanı terrorçu rejim adlandıran qətnamə qəbul etdi



***Avropa Şurası Parlament Assambleyası (AŞPA) Rusiyanın terrorçu rejim olaraq adlandırıldığı qətnamə qəbul edib.***

“Unikal” xəbər verir ki, bu barədə məlumatı Ukrayna Ali Radasının deputatı Aleksey Qonçarenko öz teleqram kanalında açıqlayıb.

Onun sözlərinə görə, qətnamənin lehinə 99 nümayəndə səs verib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700



# Azərbaycanda daha 81 nəfər koronavirusa yoluxdu

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 81 yeni yoluxma faktı qeydə alınıb, 48 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Unikal”a verilən məlumata görə, ölən olmayıb.

# Əliyevlə Putinin görüşündə mühüm mesaj: “Uzun müddətli sülhə hədəflənmişik”

***Oktyabrın 13-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.***



”Unikal” xəbər verir ki, dövlətimizin başçısını salamlayan Prezident Vladimir Putin dedi:

-Hörmətli İlham Heydər oğlu, Sizinlə bugünkü tədbir çərçivəsində indi görüşmək fürsətinə görə çox şadam. Biz Sizinlə müntəzəm olaraq görüşürük və həmişə nədənsə danışmağa mövzu var. Çünki çox müxtəlif istiqamətlər üzrə kifayət qədər geniş qarşılıqlı fəaliyyət mövcuddur. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır və əmtəə dövriyyəsi artır. Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar.

Hökumətlərarası Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər Sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, Sizin tərəfinizdən təklif olunan bir sıra perspektivli, maraqlı layihələr üzrə gedir. Təbii ki, biz regionda vəziyyətin nizamlanması ilə bağlı məsələləri də həmişə diqqətdə saxlayırıq. Ümidvaram ki, bütün bu məsələlər üzrə bir daha danışmaq fürsətindən də istifadə edəcəyik və mövqelərimizi dəqiqləşdirəcəyik.

***

Prezident İlham Əliyev dedi:

-Vladimir Vladimiroviç, Sizi yenidən görməyimə çox şadam. Siz tamamilə haqlısınız, biz müntəzəm görüşürük, demək olar, bu yaxınlarda Sankt-Peterburqda, o görüşə qədər isə ötən ay Səmərqənddə. Bizim münasibətlər nə dərəcədə dinamik inkişaf etsə də, Siz dediyiniz kimi, bir çox məsələlər üzrə mövqelərimizi dəqiqləşdirməyə həmişə ehtiyac var. Biz ölkələrimiz arasında münasibətlərin bu cür inkişaf etməsinə görə çox şadıq. Fikrimcə, bu münasibətlər ən yüksək səviyyəyə - müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə çatıb və biz bir çox məsələlər üzrə fəal surətdə irəliləyirik. Siz qeyd etdiniz, təsdiqləmək istəyirəm ki, iqtisadi-ticari əlaqələr üzrə əmtəə dövriyyəsində artım var. İndi müəyyən etdiyimiz və bundan əvvəlki görüşlərdə razılaşdırdığımız layihələr bizə qarşılıqlı ticarəti daha da artırmaq imkanı verəcək. Həmçinin nəqliyyat, energetika sahələrində və humanitar sahədə əməkdaşlıqla bağlı məsələlər. Biz bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Lakin, əlbəttə, hər bir görüşdə biz regionumuzda təhlükəsizliyə, sülhə nail olmaq məsələlərindən yan keçmirik. Biz bu gün bu barədə də danışacağıq. Biz uzunmüddətli sülhə hədəflənmişik. Biz hesab edirik ki, nəhayət bu sülhə nail olmaq üçün öz tərəfimizdən kifayət qədər konstruktiv tezislər təklif etmişik.

Beləliklə, görüşmək fürsətinə görə bir daha təşəkkür edirəm. Əminəm ki, bu görüş də çox məhsuldar olacaq. Sağ olun.rezident

# Baş nazirdən Azərbaycan-Ermənistan sərhədi ilə bağlı qərar

***Nazirlər Kabineti ”Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə yaradılmış Dövlət Komissiyasının fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər barədə” qərar verib.***

”Unikal” xəbər verir ki, qərara əsasən, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının (bundan sonra - Komissiya) cari fəaliyyətinin təşkili məqsədilə Komissiyanın Katibliyi yaradılıb.

Müəyyən edilib ki:

Komissiyanın Katibliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında şöbə hüququnda və 5 ştat vahidindən ibarət olmaqla təşkil edilir.

Katiblik:

-Komissiyanın, ekspert qrupunun və işçi qrupun fəaliyyət planını, Komissiyanın, ekspert qrupunun və işçi qrupun iclaslarında baxılacaq məsələlərin layihələrini, həmçinin hüquqi aktların layihə- lərini ekspert qrupunun və ya işçi qrupun üzvlərinin iştirakı ilə hazırlayır və müzakirəsini təşkil edir;

- Komissiyanın səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün Komissiyanın, ekspert qrupunun və ya işçi qrupun iclaslarına çıxarır;
- aidiyyəti dövlət orqanlarından (qurumlarından), mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəssisə və təşkilatlardan iclaslarda baxılan məsələlərlə bağlı məlumat, rəy və təkliflər alır;
- Komissiyanın, ekspert qrupunun və işçi qrupun fəaliyyətini təşkil və koordinasiya edir, Komissiyanın kargüzarlıq işlərini aparır, iclasların protokollarını tərtib edir və iclasların yekun sənədlərinin layihələrini Komissiyanın sədrinə təqdim edir;
- Komissiyanın qəbul etdiyi



qərarların həyata keçirilməsi ilə əlaqədar zəruri tədbirlər görür, Komissiya tərəfindən həyata keçirilməli olan tədbirlərin monitorinqini aparır, nəticələri barədə aidiyyəti üzrə təqdim edilməsi üçün hesabatlar hazırlayır;
- Komissiyanın iclaslarında baxılan məsələlər və qəbul edilən qərarlar barədə məlumatların Komissiyanın sədrinin razılığı ilə kütləvi informasiya vasitələrində yayılmasını təmin edir;
- Komissiyanın fəaliyyətinin həyata keçirilməsi ilə bağlı digər işləri həyata keçirir.

# Azərbaycanda daha bir bank bağlandı

***Azərbaycan Mərkəzi Bankı “Banklar haqqında” qanunun 16.1.2-ci və 17.3-cü maddələrini rəhbər tutaraq, Pakistan Milli Bankının müraciəti əsasında onun Bakı Filialına verilmiş 30 iyun 2005-ci il tarixli bank lisenziyasını ləğv edib.***




”Unikal” AMB-yə istinadən xəbər verir ki, bu qərar Pakistan Milli Bankının Orta Asiya və Azərbaycan maliyyə bazarlarından çıxış üzrə kommersiya strategiyası çərçivəsində qəbul edilmiş qərardan irəli gəlib.

Mərkəzi Bank tərəfindən Pakistan Milli Bankının Bakı Filialının lisenziyasının könüllü ləğvinə dair qərar qəbul edilərkən Filialın ləğvetmə planı və təqdim edilmiş maliyyə hesabatları əsasında öhdəliklərinin icrası imkanlarının olması nəzərə alınmışdır. Belə ki, 30.09.2022-ci il tarixinə Filialın likvid aktivləri (6,7 mln. manat) cəmi öhdəlikləri (0,5 mln. manat) dəfələrlə üstələyir. Filialın ləğvedicisi (Filialın Baş Meneceri Sheikh Ahtsham Ahmed) Azərbaycan Respublikasının qanunvericiliyinə və Filialın ləğvetmə planına müvafiq olaraq könüllü ləğv prosesini, o cümlədən kreditorları qarşısında öhdəliklərinin icrasını həyata keçirəcəkdir. Mərkəzi Bank qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri daxilində ləğvetmə prosesi üzrə nəzarət edəcəkdir.

# Azərbaycan Prezidentindən növbəti mesaj

## İlham Əliyev: "Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir"

***Oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclası keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.Azərbaycan Prezidenti İlham Əliyev plenar iclasda çıxış edib.Dövlət başçısı çıxışı zamanı mühüm məqamlara toxunub və önəmli mesajlar verib:

- Hörmətli Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən, ilk növbədə, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokaye-



və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısına (AQEM) dəvətinə və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Prezident Tokayevin Azərbaycana son uğurlu rəsmi səfəri zamanı ikitərəfli gündəliyin cari məsələləri ilə bağlı səmərəli müzakirələr apardıq.

Azərbaycan Qazaxıstanda Prezident Tokayevin rəhbərliyi ilə aparılan siyasi və sosial-iqtisadi islahatları dəstəkləyir.

Hörmətli həmkarlar, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə nəticəsində iki il əvvəl Azərbaycan öz torpaqlarını Ermənistan işğalından azad etdi, 30 il davam edən Qarabağ münaqişəsinə son qoydu, ədaləti bərpa etdi və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin icrasını özü təmin etdi.

Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğal zamanı şəhərlərimiz və kəndlərimiz, mədəni və dini abidələrimiz, məscidlərimiz məqsədli şəkildə dağıdılıb, təhqir və talan edilib. Hətta məscidlərdən heyvan saxlamaq üçün tövlə kimi istifadə olunurdu.

Təəssüf ki, 30 il ərzində biz erməni cəmiyyətinin bu cür vandalizmə qarşı heç bir etirazını eşitmədik, əksinə, hətta bu dağıntılar, erməni vandallar və hərbi cinayətkarlar təqdir edilir və qəhrəmanlaşdırılırdı.

Ermənistan Azərbaycanın mülki əhalisinə və hərbçilərinə qarşı sistemli şəkildə müharibə cinayətləri törədib. Birinci Qarabağ müharibəsindən bəri 3900-ə yaxın Azərbaycan vətəndaşı itkin sayılır. Onların əksəriyyəti işgəncələrə məruz qalıb, öldürülüb və kütləvi məzarlıqlarda basdırılıb. Biz işğaldan azad edilmiş iki kənddə bu il kütləvi məzarlıqlar aşkar etdik.

Ermənistan Azərbaycana itkin düşənlərin taleyi və kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumat təqdim etməlidir. Biz iki ilə yaxındır ki, bu məlumatı tələb edirik, ancaq Ermənistan hökuməti bunu Azərbaycanla bölüşməkdən imtina edir və bununla da özünü Ermənistanın əvvəlki rejimlərinin cinayətkar liderləri ilə assosiasiya edir.

Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır.

Minalardan təmizlənmə ilə paralel, indi Azərbaycan həm də işğaldan azad olunmuş ərazilərdə öz resursları hesabına genişmiqyaslı quruculuq işləri aparır. Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. "Böyük Qayıdış" adlanan proqram artıq başlayıb.

Qarabağ münaqişəsinin həll olunmasına baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir, bunlardan sonuncusu isə bu ilin sentyabr ayında da törədilib. Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-həmlə əməliyyatına başlamağa məcbur oldu. Bütün bu təxribatlara görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlının 30 il ərzində əziyyət çəkməsinə, misli görünməmiş vəhşiliyə, yüzlərlə şəhər və kəndimizin dağıdılmasına baxmayaraq, Azərbaycan Ermənistana qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edib.

Hörmətli həmkarlar, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir.

2019-cu ildən bəri Azərbaycan üzv ölkələrin yekdil qərarı əsasında dünyada BMT-dən sonra ən böyük beynəlxalq struktur olan Qoşulmama Hərəkatına sədrlik edir. Sədrliyimiz yenə də yekdil qərar əsasında daha bir il, 2023-cü ilin sonuna qədər uzadılıb.

Biz Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyi gücləndirmək, bu Hərəkatın siyasi çəkisini və qlobal nüfuzunu artırmaq üçün böyük səylər göstəririk. Azərbaycan Hərəkatın bu məqsədlə təsisatlanması ideyasını fəal şəkildə təşviq edir. Bu baxımdan, Qoşulmama Hərəkatının Azərbaycanın təşəbbüsü ilə yaradılan Parlament Şəbəkəsi və Gənclər Təşkilatı qeyd edilməlidir. Biz COVID-19-dan sonrakı dünya ilə bağlı fikir mübadiləsi aparmaq və Hərəkatın mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti il üçün yüksək səviyyəli iclasının keçirilməsini təklif etmişik. Sağ olun.

*İnformasiya şöbəsi*

# Bu komissiyanın tərkibi dəyişdi - SİYAHI

***Nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının tərkibi dəyişib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının yeni tərkibi aşağıdakı kimidir:

Komissiyanın sədri Orxan Nəzərli - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi.

Komissiyanın sədrinin müavini İlkin Vəliyev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

Komissiyanın üzvləri:

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının Uçot siyasəti şöbəsinin müdiri;

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Qiymət statistikası şöbəsinin müdiri;

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Aparatının İqtisadi siyasət şöbəsi müdirinin müavini;

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Aparatının Rəqəmsal Vergi İnzibatçılığı Baş İdarəsinin rəisi; Azərbaycan Respublikası Mərkəzi Bankının Nağd Pul Departamentinin direktoru;

"Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsin baş direktoru;

"Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxsin baş direktoru; Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı ("Azərittifaq") İdarə Heyəti sədrinin müavini.

# "Rublu heç də yaxşı günlər gözləmir" - Deputat

***"Rubl yenidən ucuzlaşıb. Rusiya milli valyutasının rəsmi məzənnəsi son 10 gündə ABŞ dollarına nisbətən 57.5 kursundan 64.0-dək dəyişib. Bu o deməkdir ki, rubl yalnız son 10 gündə 11.0 faiz dəyər itirib".***



"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, rublun ucuzlaşması Avropa İttifaqının 8-ci sanksiyalar paketini təsdiq etməsi və Krım körpüsünün partladılmasından sonra Rusiya-Ukrayna müharibəsinin yeni mərhələyə qədəm qoyması ilə bağlıdır:

"Son hadisələr Rusiya iqtisadiyyatına təzyiqi daha artırmaqdadır. Hazırda rublun rəsmi məzənnəsi daha çox inzibati sterlizasiya metodları ilə müəyyənləşsə də, bazardakı tələb və təklif də təsirsiz deyil. Rusiyada ölkədən valyuta çıxarışı məhdudlaşdırılıb. Bu isə xaricə valyuta axınına imkan verməddiyi üçün bazardakı tarazlığa təsir edirdi. Eyni zamanda, Rusiyadakı rəsmi məzənnə daha çox alış kursu təsiri bağışlayır. Xüsusən, böyük məbləğdə xarici valyuta satışlarının payı kəskin azalıb. Rublun son dəyərsizləşləşmələri ilə yanaşı, Rusiya valyutasının dollara nisbətən gələn ildən daha çox ucuzlaşması gözləntiləri yüksəkdir. Biznes yeni bazarlar, rusiyalı turistlər isə yeni ölkələr axtarır. Deməli, yenidən idxalın artması və tursit səfərlərinin sayının çoxalması müşahidə olunacaq. Digər tərəfdən, valyuta bazarındakı məhdudiyyətləri uzun müddət saxlamaq real deyil və bu da kursa təsir göstərəcək. Deməli, sanksiyaların genişlənməsi fonunda rublu heç də yaxşı günlər gözləmir".

*Seymur Əli*

# “Qiymət artımı bəzi işbazların əməlidir”

## Tahir Rzayev: “Onlar mal-qaranı ucuz qiymətə alıb gətirirlər, imkan vermirlər ki, sahibkar öz məhsulunu gətirib bazarda satsın”

***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev ”Unikal”a müsahibə verib. Komitə sədri ərzaq qiymətlərinin artmasından, son günlər dana və quzu ətinin bahalaşmasından, dünya bazarlarında buğdanın qiymətinin yüksəlməsinin ölkəmizə necə təsir edəcəyindən və s. məsələlərdən danışıb.***

***-Tahir müəllim, son bir ayda dünya bazarlarında buğdanın qiymətində artım müşahidə olunur. Azərbaycan ərzaqlıq buğdanın müəyyən hissəsini digər ölkələrdən idxal edir. Qiymətlərin yüksəlməsi ölkəmizə necə təsir edə bilər?***

-Azərbaycan 2 milyon ton ərzaqlıq buğda istehsal edir. 1,3 milyon ton isə kənardan idxal edirik. Rusiya və Ukrayna müharibəsi idxalı xeyli çətinləşdirib. Buna baxmayaraq, Azərbaycan hökuməti bir sıra qabaqlayıcı tədbirlər görür. Bəzi ərzaq məhsullarının ixracına məhdudiyyətlər qoyulub. Bir sıra ölkələrlə ərzaqlıq buğdanın alınması ilə bağlı müqavilələr bağlanır. Bildiyiniz kimi, Türkiyənin vasitəsilə Ukraynadan ərzaqlıq buğdanın idxalına imkan yaradılıb. Buna baxmayaraq, problemlərin olması təbii prosesdir. Belə ki, buğdanın qiyməti müəyyən qədər artıb. Bununla yanaşı, dünyada ərzaq qiymətlərində olan artımlar da bizim ölkəyə təsirsiz ötüşmür. Bəzən deyirlər buğdanın qiyməti dəfələrlə artacaq, aclıq olacaq və s. Belə olacağını düşünmürəm. Cüzi qiymət artımı ola bilər. Bu, Azərbaycanda aclıq və ərzaq çatışmazlığı yaratmayacaq.

***-Son günlər dana və quzu əti bahalaşıb. Bu qiymət artımları nə ilə bağlıdır?***

-Azərbaycan özünü qoyun əti ilə 100 faiz, mal əti ilə isə 90 faiz təmin edir. Hər il heyvandarlıq sahəsində istehsal artır. Bu qiymət artımı bəzi işbazların əməlidir. Digər məhsulların qiymətində artım olan kimi, ətin qiymətini artırırlar. Bəzi alverçilər vəziyyətdən sui-istifadə edirlər. Belə etmək olmaz. Bir məsələni də qeyd edim ki, quzu ətinin daha çox istifadə olunması faydalı deyil. Xarici ölkələrdə insanlar yetişmiş ət alırlar. İstər qoyun, istərsə də iribuynuzlu heyvanlar kökəltməyə verilir, ondan sonra satışa gedirlər. Baxırsan ki, bizdə ən çox 7-8 kiloluq quzuya həvəs göstərirlər. Belə olan halda bir gündə minlərlə heyvan qırılır. Bu, heyvandarlığa ziyandır. Guya, quzu ətinin tərkibi yaxşıdır, kalorilidir. Əslində, onun kalorisi digərlərindən yüksək deyil. Bu sahədə bazar mütləq tənzimlənməlidir. Təəssüf ki, bəzi yerlərdə, satışda inhisarçılıq var. Heyvanların rayondan alınıb şəhərə gətirilməsində monopoliya var. Bəzi işbazlar da bundan istifadə edirlər. Onlar mal-qaranı ucuz qiymətə alıb gətirirlər. İmkan vermirlər ki, sahibkar öz məhsulunu gətirib bazarda satsın. Belə hallar qiymətlərə ciddi təsir göstərir.

***-Ətin bahalaşmasını qeyd etdik. Ümumilikdə ərzaq və digər məhsulların bir çoxunun qiymətinin hər gün artdığını görmək olar. Qış fəslində bir çox məhsullara tələbat artır. Necə düşünürsüz, qarşıdakı aylarda qiymətlərdə hansı dəyişiklik ola bilər?***

-Qiymətlərin artmasının tərəfdarı deyiləm. İqlim dəyişikliyi, dünya ölkələri arasında olan müharibələr, iqtisadi münasibətlərin pozulması qiymətlərin artmasına təsir göstərir. Azərbaycan da dünyanın bir parçasıdır. Biz öz hesabımıza bütün ərzaq məhsulları ilə özümüzü təmin edə bilmərik. Mütləq bir sıra ərzaq və qida məhsulları xaricdən gətirilməlidir. Bununla yanaşı, qaz və neftimizi xarici ölkələrə ixrac edirik. Bu gün dünyada neftin qiyməti 100 dolları keçib, qazın qiyməti artıb. Bunları baha qiymətə satırıqsa, deməli, xaricdən idxal etdiyimiz məhsulları da baha almalıyıq. Bunlar qarşılıqlı münasibətlərdir. Neft və qazın qiymətinin artmasına sevinirik. Bizə məhsul verən ölkələr istəyir ki, onu baha qiymətə satsın. O baxımdan, gərək dünya ölkələri arasında olan mübadilə münasibətləri tənzimlənsin. Dünya bazarında qiymətlərin tənzimlənməsi çox vacibdir. Təəssüflər olsun ki, dünya ölkələri bu prinsipləri pozurlar. Qiymətlərin artmasının səbəblərindən biri də budur.

***-Özünüz də bazarlıq edəndə qiymət artımlarını müşahidə edirsizmi?***

-Əlbəttə bunu görürəm. Bunu nəinki ayda, gündə görürük. Elə məhsul var ki, qiyməti 2-3 ayda 50 faizdən çox artıb. Yağın, unun, meyvənin qiymətində artım var. Məsələn, Qubada almanın kilosunu 30 qəpiyə alırlar. Amma şəhərdə bazarda 2,5-3 manatdır. Rayondakı sahibkara lazımi şərait yaradılmayıb, o da bazar çıxa bilmir. Çətinlik bu əlaqələrdədir. Müəyyən işbazlar imkan vermir ki, həmin şəxs gəlib bazarda öz məhsulunu satsın. Belə olanda da meyvə bağlarda qalıb məhv olur. Amma şəhərdə bazarda 4 qat artıq qiymətə satılır. İctimaiyyət belə hallara qarşı müəyyən mübarizə aparmalıdır. Bazarda qayda yaratmaq üçün ancaq dövlət cavabdeh deyil. Hər birimiz belə hallara qarşı mübarizə aparmalıyıq.

-Məlum ***olduğu kimi, hər növbəti ilin yanvar ayında maaş, pensiya və müavinətlərdə artımlar olur. Bir məsələ qeyd olunmalıdır ki, həmin artımlardan əvvəl ərzaq məhsullarının qiymətində bahalaşmanı müşahidə edirik. Maaş və pensiyalar nə qədər qalxmalıdır ki, həmin artımları bazardakı qiymətlər ”udmasın”?***

- Təəssüf ki, artımı eşidən kimi, məhsulların qiymətini ondan da çox artırırlar. Bu, yolverilməzdir. Hər bir sahibkar insanların mənafeyini düşünməlidir. Bəzi alverçilər, ticarətçilər bunu düşünmürlər. Məsələn, buğdanın qiyməti az miqdarda artan kimi, ətin, südün, yumurtanın, hətta göy-göyərtinin qiymətini artırırlar. Hər bir insan öz xalqını fikirləşməlidir. Kimsə cibini doldurmaq istəyirsə, belə məsələlərə rəvac verir. Düşünməliyik ki, hər birimiz bazara müraciət edirik. Əgər qiyməti artırıramsa, demək, yaxınlarım ondan əziyyət çəkir. Hökumət tərəfindən ildən-ilə pensiya və müavinətlər artırılır. Son illər əməkhaqları dəfələrlə artıb. Bununla yanaşı, əmək haqqı, pensiya və müavinətlər bazara görə tənzimlənməlidir.

***-Bu yaxınlarda daşıyıcı şirkətlər ictimai nəqliyyatda gediş haqqının artırılması ilə bağlı hökumətə müraciət edib. Buna münasibətiniz necədir?***

-İşi yaxşı qurmağı bacarmayan daha çox qiymətlərin artırılmasına üstünlük verir. Şirkətlər işini düzgün qurmalı və elə tənzimləməlidir ki, qiymətlər artırılmasın. Məsələn, xidməti yaxşı avtobuslarla təmin edirəmsə, xidmətin keyfiyyətini yüksəldirəmsə, qiymət artımı olanda da camaat narazı qalmır. Amma xidmət səviyyəsini yüksəldə bilmirsən, qiyməti artırırsan. Həmin avtobusdur, sürücüdür və eyni xidmətdir. Qiyməti niyə artırırsan? Burada işin təşkilində problemlər var. Ona görə də ilk növbədə işlərini qaydaya qoymalıdırlar ki, qiymət artımına getməsinlər.



***-Deputat həmkarlarınızdan sosial şəbəkələrlə bağlı qanun layihəsinin hazırlanmasını təklif edənlər olur. Qeyd edirlər ki, səsləndirdikləri fikirlərə görə sosial şəbəkədə təhqirə məruz qalırlar və bu sahə qanunla tənzimlənməlidir. Siz bu barədə nə düşünürsüz?***

-Hansısa sosial şəbəkənin bağlanmasının tərəfdarı deyiləm. Məni də tənqid edirlər, bəzən təhqirə keçirlər. Hər bir insan sözünün ağası olmalıdır, real danışmalıdır. Biz nədən ağa qara deməliyik? Bəzi nankorlar Vətən müharibəsində qazandığımız uğuru etiraf etmirlər. Belə adamlar da var. Azərbaycan Ordusu möhtəşəm qələbə qazanıb, 300-ə yaxın kənd və şəhər işğaldan azad olunub. Bunu inkar edənlər məni 100 dəfə söysünlər, təsir eləmir. Ümumiyyətlə, insan söyüşlə danışmaz. Ağlı olan adam başqasını təhqir etməz. Baxırsan, cəmiyyət haqqında mənfi fikirlər yayırlar. Ziyalıları, alimləri, deputatları, məmurları təhqir edirlər. Yaxşı, bu ölkədə saf adam qalmadı? Bu, azərbaycanlı olaraq bizə yaraşan xüsusiyyət deyil. Nöqsanlarımızı deyək, amma hər şeyə qara yaxmayaq.

***Anar Kəlbiyev***

# Teymur Musayevdən narazılıq artır

## Yeni nazir "köhnə hamam, köhnə tas" prinsipi ilə işləmək fikrindədir?



***Son günlər ictimaiyyət arasında Səhiyyə Nazirliyi ilə bağlı tənqidi fikirlərin intensivləşdiyi müşahidə olunur. Bu tənqidlər, irad və narazılıqlar isə Oqtay Şirəliyevin nazir postunu tərk etməsindən sonra bu qurumun fəaliyyətində müsbətə doğru köklü dəyişikliklərin yaşanacağına dair yaranan ümidləri kəskin azaldıb.***

Son günlər ölkədə müşahidə olunan dərman qıtlığı isə Səhiyyə Nazirliyinin ünvanına səslənən tənqidlərin miqyasını da, dozasını da artırdı. Belə ki, sözügedən problem artıq Milli Məclis səviyyəsində müzakirə predmetinə çevrilib.

Belə ki, oktyabrın 11-də Milli Məclisin iclasında deputat Rüfət Quliyev apteklərdən dərmanların tapılmamasına görə rəsmi qurumları tənqid etmişdi: "Bu gün bir aydan çoxdur ki, "Adrenalin" adında dərman yoxdur. Bu gün 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb. Bu gün hansısa işbazlar 1 manatlıq olan bu dərmanı 100-150 manata satırlar. İkincisi, qlükoza və hidrogen xlorofil fizioloji məhlul dərmanı tapılmır. Çünki bunlar ölkəmizə Ukraynadan gəlir. İkincisi, bu dərmanlar Türkiyədə rahat satılır. Bizim bir ay əvvəl fikrimiz var idi ki, Türkiyədə satılan dərmanları Azərbaycana da gətirək. Bu problem təcili aradan qaldırılmalıdır. "Adrenalin" dərmanına görə bu gün həkimlər cərrahi əməliyyat həyata keçirə bilmir. Problemin həllini uzatmaq lazım deyil".

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov da dərman qıtlığını təsdiqləyib.

Deputatların çıxışlarından sonra isə Səhiyyə Nazirliyi bir sıra dərmanların satışda tapılmamasına aydınlıq gətirməyə çalışdı. Bəli, məhz çalışdı. Çünki nazirliyin açıqlaması cəmiyyətdəki suallara cavab verməK əvəzinə yeni sualların doğmasına gətirib çıxardı. Qurumdan bildirildi ki, apteklərdə qəhətə çıxan "Adrenalin - Zdorovye", "Adrenalin -Darnitsa", "Penepin" və "Penepin Jr" (sonuncu ikisi də adrenalin tərkibli dərmanlardır) dövlət qeydiyyatına alınıb. Sitat: "İstənilən şirkət bu dərmanları maneəsiz olaraq ölkəyə gətirə bilər. Bizim laboratoriyada ekspertizadan keçdikdən sonra ölkə ərazisində satışına icazə verilməsi üçün heç bir maneə yoxdur. O ki, qaldı "niyə apteklərdə yoxdur və niyə gətirilmir" sualına, bu məsələ Səhiyyə Nazirliyi və Analitik Ekspertiza Mərkəzinin səlahiyyətinə aid deyil. Belə ki, dərmanları ölkəyə özəl şirkətlər gətirir".

Bu açıqlamaya isə başqa bir deputat - Məlahət İbrahimqızından sərt reaksiya gəldi. Sitat: "Bu gün Səhiyyə Nazirliyinin açıqlamasını oxudum, sözün açığı, üzüldüm. Nazirlik məlumat yayıb ki, ölkədə dərman çatışmazlığı problemi Səhiyyə Nazirliyindən qaynaqlanmır. Səhiyyə Nazirliyi dövlətin səhiyyə məsələlərini həyata keçirən institutlaşmış ən yüksək ali icra strukturudur. Yəni nazirlikdən üstün səhiyyə strukturu yoxdur. Ona görə də dövlətimizin səhiyyə sahəsi, əhalinin sağlamlıq məsələləri ilə bağlı siyasətinin həyata keçirilməsinə bilavasitə Səhiyyə Nazirliyi cavabdehdir. Nazirlik bu məsələdə TƏBİB-lə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, hətta əczaçı sahibkarlarla da təxirə salınmaz təcili müşavirə, iclaslar keçirməli, qıtlığın səbəbini aydınlaşdırmalı idi. Problem hardan qaynaqlanırsa, aradan qaldırılması ilə bağlı konkret tədbirlər görməli idi. Ya nazirlik bunu özü etməli idi, gücləri çərçivəsində həll olunmursa, sözsüz ki, hökumətin, Baş nazirin qarşısında məsələ qaldırmalıdır. Kimsə üstündən atıb desin ki, "bu problem bizdən qaynaqlanmır", hesab edirəm, bu, düzgün deyil... Məsələ iş adamlarından qaynaqlanırsa, Səhiyyə Nazirliyi və müvafiq strukturlar tərəfindən İqtisadiyyat Nazirliyinə müraciət olunmalıdır".

Deputatın dediklərinə qatılmamaq mümkün deyil: hansısa ərzaqla bağlı qıtlıq olsa, qida məhsulu çatışmasa, heç kim bunu bir o qədər də böyük dərd etməz, nəticədə belə ciddi ajiotaj yaranmazdı. Lakin dərman elə bir məhsuldur ki, bundan insanın sağlamlığı, canı, həyatı asılıdır. Belədə ölkə səhiyyəsinə cavabdeh bir qurum ""filan dərman niyə apteklərdə yoxdur və niyə gətirilmir" sualının cavabı Səhiyyə Nazirliyi və Analitik Ekspertiza Mərkəzinin səlahiyyətinə aid deyil" kimi absurd, hətta anormal bir açıqlama ilə işin içindən çıxa, yaxasını kənara çəkə bilməz!

Biz adıçəkilən nazirliyin ciddi mövzulara laqeyd, ötəri münasibətinə Oqtay Şirəliyevin zamanından adət etmişik. Güman eləmək olardı ki, Teymur Musayevin nazir təyinatından sonra qurumun ənənəvi iş prinsipi dəyişəcək, cəmiyyətin gündəmini məşğul edən məsələlərdə həssaslıq göstəriləcək. Lakin görünən odur ki, Səhiyyə Nazirliyində hələ də Şirəliyevin idarəçilik dəst-xətti hakimdir. Nazirlik ictimaiyyətin, medianın tənqidi fikirlərinə ya susqunluqla "cavab" verir, ya da tənqidlərə, giley-güzarlara, narazılıqlara başdansovdu şəkildə reaksiya ilə kifayətlənir. Söhbət yalnız dərman qıtlığı ilə bağlı yaranmış ajiotaja qeyri-adekvat münasibətdən də getmir. Başqa örnəklər də var. Məsələn, Səhiyyə Nazirliyindən hələ də dövlət satınalmaları zamanı şəffaflıq, obyektivlik baxımından keçmiş rəhbərliyin yol verdiyi yanlışların təkrarlandığına dair siqnallar gəlir, KİV-də müxtəlif məlumatlar yer alır. Lakin adıçəkilən nazirlik bununla bağlı da Şirəliyevin dövründən qalma "təcrübə"dən çıxış edir - susur, beləcə, şübhələrə son qoymaq yerinə şübhələri dərinləşdirmək yolu tutur...

Yeni nazir və ətrafı bilməlidir ki, bu cür iş prinsipi ilə Azərbaycan səhiyyəsini arzuolunan səviyyəyə çatdırmaq, nöqsanlardan, qüsurlardan təmizləmək, illərdir yığılmış çoxsaylı problemlərin girdabından xilas etmək mümkün deyil. Üstəlik, belə fəaliyyət metodu bizə axırda "yeni Oqtay Şirəliyev" nümunəsindən başqa da heç nə vəd eləmir.

Bizdən söyləmək, sonrasını Teymur müəllimlə komandası bilər...

***Toğrul Əliyev***

# "İdman edirəm, özümü qoruyuram" - Hadı Rəcəbli



***Xəbər verdiyimiz kimi, ötən gün Əməkdar incəsənət xadimi Ruhəngiz Qasımova ilə vida mərasimi keçirilib. Vida mərasimində keçmiş deputatlar Hadı Rəcəbli və Hüseynbala Mirələmov da iştirak edib. Uzun müddət sonra görünən Hadı Rəcəblinin kəskin şəkildə arıqlaması diqqət çəkib.***

Məsələ ilə bağlı "Unikal"a danışan H. Rəcəbli arıqlamasının səbəbini açıqlayıb:

"İdman edirəm, özümü qoruyuram. Bəziləri yazır ki, guya, xəstəliyə tutulmuşam. Heç bir xəstəliyim yoxdur. Hər şey yüksək səviyyədədir. Sadəcə, çalışıram ki, arıqlayım. Gizlənirik, çalışırıq ki, görünməyək. Görünəndə də belə olur", - deyə sabiq deputat qeyd edib.

***Murad İbrahimli***

# Vüqar Əhmədov Ağdaşda vətəndaşları qəbul edəcək

***"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov oktyabrın 14-də saat 10:00-da Ağdaş şəhərində Ağdaş və Göyçay rayonlarından olan vətəndaşları qəbul edəcək.***

"Unikal" xəbər verir ki, qəbul Ağdaş şəhəri, Xiyabani küçəsi 2 ünvanında yerləşən Heydər Əliyev Mərkəzində keçiriləcək.

Qəbul Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Ağdaş Elektrik Şəbəkəsinə və ya "Azərişıq" ASC-nin 199 çağrı mərkəzinə, onlayn isə info@azerishiq.az elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər.

Vətəndaşların diqqətinə çatdırırıq ki, qəbulda müraciətlər yalnız "Azərişıq" ASC-nin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı olmalıdır.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.

# Köçərli Həsənov Mingəçevirdə vətəndaşları dinlədi

***Mərkəzi icra hakimiyyəti orqanlarının, digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin okyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənov 12 oktyabr 2022-ci il tarixində Mingəçevirdə Mingəçevir şəhəri və Yevlax rayonundan olan vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov və Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Mingəçevir Şəhəri Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Mingəçevir şəhəri və Yevlax rayonundan olan 61 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və tullantı sularının axıdılması xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

# Vitse-spiker Simonyanın təklifinə cavab verdi



***Bu yaxınlarda Moskvada Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin və Ermənistan parlamentinin spikeri Alen Simonyan arasında görüş keçirilib. Görüşdə Alen Simonyan Rusiya, Ermənistan və Azərbaycanın iştirakı ilə parlament formatı çərçivəsində regional təhlükəsizlik məsələlərini müzakirə etmək təşəbbüsü ilə çıxış edib. Vyaçeslav Volodin bu təklifi dəstəkləyib.***

Azərbaycan Milli Məclisinin sədr müavini Fəzail İbrahimli erməni spikerin irəli sürdüyü təklifə münasibət bildirib.

Bu barədə Modern.az-a danışan vitse-spiker deyib ki, belə bir təklifin məhz Ermənistan tərəfindən edilməsinin xüsusi məqsədi var: “Ermənistan müstəqil siyasət yeridən dövlət deyil. Ermənilərə hansı inam, etibardan söhbət gedə bilər? Bir ayağı Avropada, bir əli Amerika lobbilərinin cibində olan, daxilində siyasi anarxiya, gücsüz hakimiyyət, iqtisadi böhran, qeyri-müəyyənlik yaşayan ölkədən danışırıq. Ermənistan iki ildir, bağlanan müqavilənin şərtlərinə əməl etmir. Brüsseldə keçirilən görüşlərdə Nikol Paşinyan bir söz deyir, Ermənistana qayıdanda başqa söz. Rusiya ilə görüşəndə isə tamam fərqli mövqedən çıxış edir. Onların sözünün heç bir qüdrəti yoxdur və belə bir görüş keçirilsə də hansısa nəticənin əldə ediləcəyinə ümid bəsləmirəm”.

F.İbrahimli qeyd edib ki, Azərbaycan sülh müqaviləsi ilə bağlı Ermənistana 5 maddədən ibarət təkliflər verib. Onun sözlərinə görə, ölkəmiz sülh müqaviləsinin tezliklə imzalanmasına çalışır: ”Azərbaycan parlamentinin spikeri bu görüşə qoşulmaq istəyərsə, kifayət qədər arqumentləri var. Azərbaycanın tarixində həmişə önəmli yer tutan parlament bu məsələlərdə də öndə ola bilər. Belə bir görüş baş tutarsa, Azərbaycan orada öz tələblərini bir daha qətiyyətlə müdafiə edəcək”.

# Dövləq qulluqçusu olmaq istəyənlərin diqqətinə!



***Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il oktyabrın 16-da dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul olmaq üçün test imtahanı keçiriləcək.***

DİM-dən “Unikal”a bildirilib ki, imtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır və 3 saat davam edir. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmırlar.

İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq “İmtahana buraxılış vərəqəsi”ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara “Namizədin yaddaş kitabçası” da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 8 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 523, BB qrupu üzrə 1460 olmaqla, ümumilikdə 1983 namizəd qeydiyyatdan keçib. İmtahanının keçirilməsi üçün 8 ümumi imtahan rəhbəri, 22 imtahan rəhbəri, 177 nəzarətçi müəllim, 17 buraxılış rejimi əməkdaşı ayrılıb.

# “Azərenerji”də köhnədən qalan "borc bataqlığı" qurudulur

## Sabiq "işıq şefi"nin yarıtmazlığı ucbatından yaranan "zərər dövrü", nəhayət ki, bitdi

***Azərbaycanda dövlətə məxsus energetika şirkəti “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti son 7 ildə ilk dəfə xalis mənfəətə çıxdı. Bu barədə şirkətin 2021-ci il üzrə audit hesabatında bildirilib.***

Hesabatda qeyd edilib ki, ASC-nin xalis mənfəəti 2021-ci ildə 145.72 mln. manat olub, bu da 2014-cü ildən bu tərəfə ilk qeydə alınmış xalis mənfəətdir.

Azərbaycanın elektroenergetika sisteminin fəaliyyətini təmin etməklə, elektrik enerjisinin istehsalı və ötürülməsinin, vahid mərkəzdən idarə edən “Azərenerji” 1 mlrd. 320.34 mln. manatlıq gəlir əldə edib. Bu öncəki ildən 18% çoxdur. Gəlirlərinin 1 mlrd. 280.91 mln. manatı enerji satışından, 8.83 mln.manat elektrik şəbəkisinə qoşulma xidməti və 30.6 mln. manatı digər gəlirlər olub.



Energetika nəhəngi 634.85 mln. manat yanacaq (2020: 509.65 mln.), 220.64 mln. manat amortizasiya (193.81 mln. manat), 75.53 mln. manat işçi xərcləri (71.78 mln. manat), 101.75 təmir və texniki xidmət (110.05 mln. manat), 37.87 mln. manat mənfəət vergisindən başqa vergi xərci ( 38.57 mln.) 6.87 xammal və material (14.17 mln.) və s. olmaqla 130.56 mln. manatlıq əməliyyat mənfəəti edib. Şirkətin əməliyyat mənfəəti öncəki ildə cəmi 97.2 mln. manat idi. Əlavə olaraq ”Azərenerji”nin maliyyə xərcləri 24% azalaraq 27.31 mln. manat olub. Xarici valyuta mübadiləsində öncəki ildə (2020) 83.79 mln. manat zərər etdiyi halda, bu 2021-ci ildə 84.42 mln. manatlıq mənfəət olub. Bununla daxil üzrə xalis mənfəəti 145.72 mln. manat olub. Öncəki ildə bu 207.24 mln. manat zərər idi. Həmin xalis mənfəət isə ”Azərenerji”nin illərlə yığılmış 2 mlrd. 748.47 mln. manatlıq zərərini azaldaraq 2 mlrd. 601.24 mln. manata endirib.

Bir sözlə, ölkənin energetika nəhəngi uzun dövr arasında, bir az da konkretləşdirsək, Etibar Pirverdiyevin 17 illik (2001 - 2018) yanlış idarəçiliyi nəticəsində sürükləndiyi ”zərər bataqlığından” qurtulmağa başlayıb.

Xatırlatmaq yerinə düşər ki, Pirverdiyev təkcə 2015-ci ildə ”Azərnerji”ni 870.53 mln. manat, 2016-cı ildə 108.93 mln. manat, 2017-ci ildə isə 603.87 mln. manat zərərə uğratmışdı.

Sabiq ”işıq şefi”nin səbatsızlığı nəticəsində bu ”zərər dalğası”nı birdən- birə sabitləşdirmək mümkün olmamış, lakin onun vəzifədən kənarlaşdırılmasından sonra ASC-də həyata keçirilən planlı, sistemli tədbirlər nəticə verməyə başlamış, nəhayət, yazının əvvəlində də qeyd olunduğu kimi, 2021-ci ili şirkət 145.72 mln. manat kimi yüksək bir xalis mənfəətlə başa vurmuşdu. Mütəxəssislər bu tendensiyanın davam edəcəyinə və ”Azərenerji”nin keçmiş sədrdən miras qalan borclarından yaxın gələcəkdə qurtulacağına əmindirlər.

Onu da deyək ki, ”Azərenerji”nin Etibar Pirverdiyevin zamanında külli miqdarda borclanmasına əsas səbəblərdən biri kimi, uzun müddətdir bu qurumun gəlirləri üzərində şəffaflığın təmin edilməməsi göstərilirdi. Kiçik bir fakt: 2004-2012-ci illərdə Azərbaycan 71 layihə üzrə 9 milyard 545,9 milyon dollar kredit alıb, bunun 24,09%-i və ya 2,3 milyard dolları ”Azərenerji”nin payına düşmüşdü. Bunun üzərinə yüz milyonlarla manat dövlət investisiyasını gəldikdə ötən illər ərzində Pirverdiyevin rəhbəri olduğu quruma fantastik məbləğdə pulların yönəldiyinə heç bir şübhə qalmırdı. Buna baxmayaraq, həmin vəsaitlərin təyinatı üzrə xərclənib-xərclənmədiyi mübahisə mövzusu idi. Belə mübahisələri anlayışla qarşılamamaq mümkün deyil: məsələn, ”Azərenerji” həmin milyardlarla dollara rəğmən ölkənin fasiləsiz elektrik enerjisi ilə təchizatına nail ola bilməmişdi. Bunu paytaxt Bakı da daxil olmaqla, az qala ölkənin hər yerindən davamlı şəkildə işıqla bağlı şikayətlərin səngiməməsindən aydın təxmin etmək olardı.

Üstəlik, Pirverdiyev bir yandan rəhbərlik etdiyi QSC-ni borclandırarkən digər tərəfdən isə özünün şəxsi biznesini günbəgün gücləndirir, genişləndirirdi. Nəticədə isə cəmiyyətdə haqlı olaraq belə bir rəy formalaşırdı ki, sabiq ”işıq şefinin” ”Azərenerji”də yaratdığı korrupsiya mexanizmi nəticəsində milyonlarla manat mənimsənilir, həmin pullar isə keçmiş sədrin şəxsi biznesinin böyüməsinə yönəldilir. Bu rəylə razılaşmamaq mümkün deyil: Pirverdiyevin vəzifədən getməsi ilə onun şirkətlərinin də ”qara günləri” başladı. Həmin şirkətlərin fəaliyyəti iflic vəziyyətə düşdü: ya tamamilə bağlandılar, ya da əvvəlki ”əzəmətlərini” günün- günorta çağı çıraqla axtarırlar. Lap ”bağda ərik var” misalında olduğu kimi. ”Bağda ərik qurtardı”, Pirverdiyevin şirkətləri üçün parlaq günlər də bitdi.

Geriyə isə bir dövlət şirkətinin, az qala, 3 milyard manata yaxınlaşan borcu qaldı...

***Sənan Mirzə***

# Korrupsiyaya görə həbs edilən sabiq məmurların absurd davası

## Dövlətdən oğurlanan milyonlarla manatlıq vəsaitlər və əmlaklar hansı haqla geri tələb olunur?

***Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) sabiq Aparat rəhbəri Vidadi Zeynalov mülklərini geri istəyir.***

Qaynarinfo-nun məlumatına görə, sabiq Aparat rəhbəri bununla bağlı Ali Məhkəməyə müraciət edib. İşə İspəndiyar Şəfiyevin sədrliyi ilə baxılacaq.

Vidadi Zeynalov özü ilə yanaşı, ailə üzvlərinin və yaxın qohumlarının adına olan əmlaklarını da geri istəyir.

Bunun üçün onun həyat yoldaşı Şura Zeynalova, oğlanları Pərviz Zeynalov və Zeynal Zeynalı, yaxın qohumu Natavan Zeynalova da məhkəməyə müraciət edib.

Məhkəmədə cavabdeh kimi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi göstərilib.

2015-ci ilin noyabr ayının 13-də həbs edilən, 2017-ci il iyulun 27-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə barəsində 13 il müddətinə azadlıqdan məhrumetmə cəzası seçilən və 15.03.2019-cu ildə azadlığa buraxılan V.Zeynalovun üzərinə həbs qoyulmuş əmlakların ümumi dəyəri 43 milyon 489 min 537 manat təşkil edir. Onun xaricdə də qiyməti milyonlarla olan əmlakları var.

Xatırladaq ki, ötən həftə də İmişlinin həbsdə olan sabiq icra başçısı Vilyam Hacıyevin həyat yoldaşı Cülyetta İbrahimovanın və oğlu Məhəmməd Hacıyevin adlarına rəsmiləşdirilmiş əmlakların müsadirə olunmasından narazılığı ortaya çıxmışdı. Elə bu narazılıq səbəbindən də onlar apellyasiya şikayəti veriblər. Şikayət ərizəsində Cülyetta Hacıyeva 5 milyon 218 min manatlıq mənzil və avtomobillərin, Məhəmməd Hacıyev isə 126 000 manatlıq "Land Rover" markalı avtomobilin müsadirədən azad olunmasını istəyib!

İş Bakı Apellyasiya Məhkəməsində hakim İbrahim İbrahimlinin sədrlik etdiyi məhkəmə heyəti tərəfindən araşdırılır.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyat zamanı həbs olunan Vilyam Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il azadlıqdan məhrum edilib. Hökmə əsasən sabiq icra başçısına məxsus 5 344 000 manatlıq əmlakı da dövlət nəfinə müsadirə olunub.

Bu arada "Azərxalça" ASC-nin İdarə Heyətinin sabiq sədri, məhkəmə istintaqı dövründə vəfat etmiş Vidadi Muradovun ailə üzvlərinin də kassasiya şikayətinə baxılıb. Şikayətdə cinayət işinə bəraətverici əsaslarla xitam verilməsi və əmlaklarının müsadirədən azad olunması istənilib. Ali Məhkəmədə hakim Əziz Seyidovun sədrliyi ilə baxılan iş üzrə şikayət qismən təmin edilib. Vidadi Muradovun cinayət işi ilə bağlı banka girov qoyulmuş əmlaklar hissəsində qərar ləğv edilərək, yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarılıb. Qərarın qalan hissələri isə qüvvədə saxlanılıb.

Xatırladaq ki, "Azərxalça" ASC-nin İdarə Heyətinin sabiq sədri Muradov Vidadi Aydın oğlu Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən keçirilən əməliyyatla həbs olunub. Onkoloji xəstəliyi ilə bağlı ev dustaqlığına buraxılan Vidadi Muradov ötən ilin noyabrın 5-də ev dustaqlığında vəfat edib. Bundan sonra məhkəmə onun həyat yoldaşını hüquqi varis kimi tanıyıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Muradov barəsindəki cinayət işinə bəraətverici əsaslar olmadan xitam verilib. Onun özünə və yaxınlarına məxsus 30 milyonluq əmlak isə dövlət nəfinə müsadirə olunub.



Göründüyü kimi, ilginc proses başlayıb: külli miqdarda dövlət vəsaitlərini talan edən, həmin vəsaitlər hesabına özlərinə, ailə üzvlərinə dəbdəbəli həyat quran, çoxsayda mülk, ticarət obyekti və fantastik məbləğdə pul sahibi olan eks-məmurlar, yaxud onların yaxınları, ailə üzvləri məhkəmə tərəfindən haqlı şəkildə müsadirə edilən sərvətlərini geri qaytarmaq üçün mübarizəyə start veriblər. Cəmiyyət belə eks-məmurlardan törətdikləri qanunsuz əməllərə görə üzrxahlıq gözlədiyi halda, həmin keçmiş post sahibləri tamamilə fərqli yol tuturlar - büdcədən, xaqlın cibindən oğurladıqları on milyonlarla manat sayəsində "qazandıqları" sərvəti geri istəyirlər! Necə deyərlər, "üzrü günahından betər..."

Bu eks-məmurlardan soruşsaq ki, uzaqbaşı 1500-2000 manatlıq maaşla həmin əmlakları, mülkləri necə alıblar, ən yaxşı halda susacaqlar ən pis halda isə absurd, cəmiyyətdə yalnız ikrah və ironiya yaradan "arqumentlər" gətirəcəklər. Məsələn, Vilyam Hacıyev kimi - guya hansısa yaxın əqrəbasından ona böyük məbləğdə pul miras qalıb. Halbuki, kimsə çörəyi qulağına yemir və istənilən məmurun hətta dünyanın ən varlı iş adamlarını belə qısqandıracaq vardövləti yalnız korrupsiya hesabına əldə etdiyini hər kəs bilir. Lakin ürəkağrıdan məqam odur ki, vəzifədə ikən yol verdikləri qanunsuz əməllərdən peşmançılıqlarını dilə gətirmək, dövlətdən və millətdən səmimi üzrxahlıq eləmək əvəzinə həmin məmurlar, onların yaxınları özlərini elə aparırlar ki, sanki ortada hansısa mənimsəmə, rüşvət cinayəti yoxdur. Beləcə, büdcədən, xalqın cibindən çırpışdırdıqlarını büdcəyə, xalqın cibinə qaytarmamaq üçün direşirlər. Adam bu cür absurd qarşısında nə deyəcəyini bilmir. Əslində, yazılacaq və söyləniləcək çox şey var, ancaq təəssüf ki, qəzet səhifələri həmin sözlərin yeri deyil...

Bir dəfə də yazmışdıq: korrupsiyaya görə həbs edilən məmurların cəmi bir neçə ildən sonra azadlığa çıxarılması mənfi tendensiyadır və hələ də vəzifədə olanlara yaxşı nümunə yaratmır. Kimlərsə düşünür ki, büdcə talançılığına, rüşvət almağa davam edə bilər, tutulsa uzaqbaşı 2-3 ilə azadlığa qovuşacaq, bununla da yığdığı milyonları oturub rahatca, xımırxımır yeyəcək. Əgər həmin mənfi tendensiyanın üstünə bir də müsadirə olunan əmlakların, vəsaitlərin geri qaytarılması prosesi gəlsə, son illərdə korrupsiyaya qarşı güclənən mübarizənin mahiyyəti daha da zədələnəcək.

On milyonlarla, yüz milyonlarla manatı mənimsə, bu pullarla mülklər, ticarət obyektləri al, ailə biznesi qur, sonra gedib bir neçə il həbsdə yat, ardınca azadlığa çıx və o var-dövlətin yenidən sahibi ol?! Açıq danışaq: belə "məntiq" korrupsiya ilə mübarizəyə ziyandan başqa nə verə bilər ki!..

***Sənan Mirzə***



## "Yeniyetmələr üçün "Tik-Tok" məhdudlaşdırılmalıdır" - Osman Gündüz

***"Dünya üzrə saytların, sosial medianın və mobil tətbiqlərin fəaliyyətini analiz edən müxtəlif platformalar var. Bu alətlərdən istifadə etməklə hər bir ölkə üzrə bütövlükdə ümumi mənzərəni görmək olar".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz sosial şəbəkə hesabında yazıb.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistanda pulsuz mobil tətbiqlərdən hansıların daha populyar olmasını analiz edəndə görmək olar ki, vəziyyət elə də xoşagələn deyil.

"Düzü, bu dərəcdə olacağını da heç təsəvvür etməzdim. Qlobal statistikadan görsənir ki, son zamanlarda bizim mobil istifadəçilərimizin yüklədikləri pulsuz mobil tətbiqlərin ilk beşliyində yalnız VPN-lərdir. Bu, çox düşündürücüdür. Bu analizdən anlaşılır ki, smartfon istifadəçilərimizin əksəriyyəti VPN üzərində "oturub". Bu, əsasən "Android" platformadan istifadə edənlərlə bağlıdır. "App Store" diqqət yetirdikdə nisbətən fərqli situasiyadır. Amma burada da VPN-lər gözə dəyir. Ermənistan istifadəçilərinin maraq dairsəinə nəzər salanda görmək olar ki, situasiya tam fərqlidir. Orada ümumiyyətlə VPN gündəmdə deyil. Çox güman ki, bir müddət öncə tətbiq edilən bloklanma aradan qaldırılıb".

O.Gündüz qeyd edib ki, istifadəçilərimizin VPN-dən istifadəsinin kökündə "Tik-Tok" dayanır: "Bu platforma ölkəmizdə müvəqqəti olaraq bloklanıb. Bir müddət əvvəl "Tik-Tok" rəsmiləri ilə görüşmüşdüm. Onlar özlərindəki statistikaya əsasən, Azərbaycanda 3 milyon "Tik-Tok" istifadəçisi olduğunu bildirmişdilər. Bu, Azərbaycan üçün çox böyük rəqəmdir. Düşünürəm ki, "Tik-Tok"la bağlı qərar verənlərimiz bu mənzərənin fərqində olmalıdır. Uşaqların təhlükəsizliyi ilə bağlı daha təkmil və effektiv üsullardan istifadəyə diqqət yetirilməlidir. Baxmayaraq ki, "Tik-Tok" rəsmiləri özlərindəki statistikaya istinadən bizdə uşaqların bu platformada az olduğunu vurğulayırlar, amma reallıqda vəziyyət fərqlidir. Yenə də o fikirdəyik ki, uşaqlar və yeniyetmələr üçün "Tik-Tok" məhdudlaşdırılmalıdır. Düşünürük ki, pulsuz VPN-lərdən istifadə əsasında "Tik-Tok" istifadəsi uşaqlar üçün daha ciddi risklər yaradır. Bu istiqamətdə bütün maraqlı tərəflərin iştirakı ilə daha ağlabatan üsullardan istifadə edilməlidir. Amma, ciddi hüquqi əsaslar olmadan bu platformaya qarşı bloklanma doğru olmazdı. Digər ölkələrdə olduğu kimi təhlükəsizlik məsələlərinin qorunması ilə bağlı bu platforma ilə əməkdaşlıq daha ağlabatan olardı".

***Seymur Əli***



# Şəhid Yunis Surxayevin anım mərasimi keçirilib

***Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olmuş Yunsi Rafik oğlu Surxayevin anım mərasimi keçirilib. Anım mərasimi şəhidin dəfn olunduğu rayonun Lökbatan qəsəbəsində baş tutub.***

"Unikal" xəbər verir ki, anım mərasimində Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Şəhidin ailə üzvləri, yaxınları, qazilər, şəhidin hərbiçi yoldaşları, Milli Məclisin deputatı Aydın Hüseynov, YAP Qaradağ Rayon Təşkilatının sədri Qafar Əliyev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, rayon icra hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daha sonra mərasim iştirakçıları Lökbatan qəsəbəsindəki Şəhidlər xiyabanında şəhid Surxayev Yunis Rafik oğlunu məzarı önünə əklil və gül dəstələri qoyuldu. Şəhid Yunis Surxayev 20 yanvar 2002-ci ildə Qaradağ rayonunun Qobustan qəsəbəsində anadan olmuşdur. 2008-ci ci ildə Qobustan qəsəbəsindəki 233 nömrəli tam orta məktəbin 1-ci sinifinə daxil olmuş və 2019-cu ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2020- cil ilin aprel ayında hərbi xidmətə gedib.

Sentyabrın 27-də səhər saatlarında Ermənistan yaraqlıları Azərbaycanın Füzuli, Cəbrayıl, Tərtər, Ağdərə istiqamətlərində Azərbaycan ordusunun mövqelərinə, kəndlərimizə iriçaplı silahlardan, ağır artilleriyadan istifadə edərək, genişmiqyaslı təxribatlara yol açmışlar. Azərbaycan silahlı qüvvələri təxribatın qarşısını almaq üçün əks-hücumla düşmənə ağır zərbələr endiriblər. 2020-ci il oktyabrın 13-də, Suqovuşanın azad olunması istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən Vətən müharibəsinin şəhidi Yunsi Rafik oğlu Surxayev ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından söz açıb. Mərasimdə şəhidlərin yaxınları onların xatirəsinə göstərilən hörmət və ehtirama görə ölkə rəhbərliyinə öz minnətdarlığını bildiriblər.

# Bakıda intihar etdiyi deyilən qız tələbə imiş



***İki gün öncə paytaxtın Nərimanov rayonunda binanın 8-ci mərtəbəsindən yerə yıxılıb dünyasını dəyişən Heydərova Fidan Rüfət qızının tələbə olduğu məlum olub.***

"Unikal"ın məlumatına görə, o, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2-ci kurs tələbəsidir.

Qeyd edək ki, Fidan Heydərova əslən Masallı rayonundandır. Atası Rüfət Heydərov isə Masallı rayon Qodman kənd tam orta məktəbinin müəllimidir.

F.Heydərova Bakıda kirayə yaşayırmış. Onun intihar etdiyi ehtimal olunur.

***Murad İbrahimli***

# İcra başçılarının mənasız arxayınlığı...

## Həftənin sualı: müxtəlif rayonlardan gələn şikayətlərin sayı niyə yenidən artır?

***Son vaxtlar yazılı və elektron mediada, eləcə də sosial şəbəkələrdə ayrı-ayrı rayonların icra hakimiyyəti başçılarının fəaliyyəti ilə bağlı şikayətlərin yenidən artdığı müşahidə olunur. Bu şikayətlərin motivləri müxtəlifdir: kimi rayon rəhbərlərinin vətəndaş müraciətlərinə dırnaqarası münasibətindən, kimi torpaqlarının əlindən alınmasından gileylidir. Bəziləri yerli məmurların özbaşınalıqlarından, rüşvət və korrupsiya əməllərindən narazıdır, bəziləri isə onların əlçatmazlığından...***

Heç kimə sirr deyil ki, Azərbaycanda bir çox icra başçıları vətəndaşlarla kobud rəftarı, laqeyd münasibəti, korrupsiyaya meylliliyi ilə gündəmə gəlib. Sovet dövrünün idarəetmə sisteminin təsirindən irəli gələn haldır ki, bəzi rayon rəhbərləri özlərini az qala əyalət padşahı kimi aparırlar. Diqqətçəkən maraqlı məqamlardan biri də onların bir çoxunun sırf kommunist ruhlu olmasıdır. Müqayisə edəndə icra başçılarının bir çoxunu Sovet dövrünün raykom katiblərindən fərqlənmədiyini görürük" deyənlər belə hesab edirlər ki, bu cür şəraitdə sözügedən orqanların ölkədə həyata keçirilən islahatlarla ayaqlaşması qeyri-mümkündür.

Hələ uzun müddətdir ki, əksəriyyətin fikrincə, icra başçılarının bu postlara təyinatla gəlməsi rahatlıq yaradır, vətəndaş qarşısında məsuliyyətlərini dərk etməyə mane olur. Hətta bir neçə il öncə Sosial Tədqiqatlar Mərkəzinin (STM) keçirdiyi sorğudan belə aydın olurdu ki, Azərbaycan əhalisinin yarıdan çoxu da yerli icra hakimiyyətlərinə etibar etmir!

Lakin son illərdə bir sıra icra başçılarının anti-korrupsiya tədbirləri nəticəsində həbsi fərqli situasiya yaratmışdı - rayonlardan gələn şikayətlərin, narazılıqların azaldığı müşahidə edilirdi. Eləcə də, rayon rəhbərləri vətəndaşların müraciətlərinə həssas yanaşmağa çalışırdılar.

Son zamanlar artan şikayətlər isə belə qənaət formalaşdırır ki, icra başçılarının həbsinə verilən "fasilə" müəyyən rayonların rəhbərlərində arxayınlıq yaradıb. Ona görə də həmin başçılar yenidən əvvəlki qaydada "işləməyə" başlayıblar, necə deyərlər, "köhnə hamam, köhnə tas" prinsipinə qayıdıblar.

Ən arzuedilməz olanı odur ki, müxtəlif rayonların rəhbərliyinə gətirilən bəzi yeni kadrların fəaliyyəti ilə bağlı da artıq mətbuatda, sosial şəbəkələrdə vətəndaşların giley-güzarı eşidilir. Halbuki ölkə başçısı son zamanlardakı çıxışlarında mütəmadi olaraq bu cür kadrlara xəbərdarlıq edir. Məsələn, bu ilin iyulunda Göygöl, Masallı və Lerik rayonlarına təyin olunmuş İcra Hakimiyyəti başçıları ilə görüşündə ölkə rəhbəri ciddi tövsiyyə və kəskin tələblərlə çıxış eləmişdi. Prezident xatırlatmışdı ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilib, bəzilərinin hökmü verilib, bəzilərinin işləri məhkəmədədir: "Bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır".

İdarəetmədə çox ciddi islahatlar, böyük təmizləmə işləri aparıldığını qeyd edən Prezident bu işlərə rəvac verən, bəzi dövlət məmurlarını, yerli icra orqanlarını qanunsuz işlərə təhrik edən insanların hakimiyyətdən uzaqlaşdırıldığını bildirmiş və xəbərdarlıq etmişdi: "Dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm:



Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Qanunsuz işlərlə məşğul olmaq istəyənlər cəzalandırılacaq".

Bir sözlə, istər uzun illərdir icra başçısı işləyən, istərsə də bu postlara yeni təyin olunan kadrların bir çoxu ilə bağlı getdikcə intensivləşən şikayətlər belə düşünməyə əsas verir ki, çox keçmədən biz növbəti həbslərin şahidi ola bilərik. Dövlət belə rayon rəhbərlərinə qarşı güzəştsiz olmaqda qərarlıdır, əgər bəzi icra başçıları bunun fonunda hələ də özlərini "toxunulmaz" sayacaqlarsa, vətəndaşa deyil, şəxsi maraqlarına xidmət etməyi üstün tutacaqlarsa, qandallanmaqdan başqa variant qalmayacaq. Odur ki, icra başçılarının həbsinə verilən "fasilə" kimsəni nə cəsarətləndirməsin, nə də arxayınlaşdırmasın. Bu, yersiz "cəsarət", mənasız arxayınlıqdır.

Əsla unudulmamalıdır ki, hazırda həbs həyatı yaşayan sabiq vəzifəlilərin aqibəti ilə üzləşmək istəməyən hər bir məmurun indi yalnız bir yolu var - ölkə rəhbərliyi tərəfindən onların qarşılarına qoyulmuş tələbləri layiqincə yerinə yetirmək!

***Toğrul Əliyev***

# 6.3.17. ekologiya və ətraf mühitin mühafizəsi;




# Xəzərin suyunun duzlaşdırılması içməli su itkisini azaldacaq

Nurməmməd Məmmədov: "İçməli suyu ancaq məişətdə istifadə etmək, duzsuzlaşdırılan suyu isə texniki məqsədlərlə - suvarmada, həm də içməli su kimi istifadə etmək su ehtiyatının azalmasının qarşısını alacaq"

***Ekologiya və ətraf mühitin mühafizəsi üçün içməli sudan qənaətlə istifadə vacibdir. Hazırda ölkəmizdə içməli su həm də kənd təsərrüfatı üçün, texniki məqsədlər üçün istifadə edildiyindən, Azərbaycanda içməli su ilə bağlı gələcəkdə çatışmazlığın yaranacağı qaçılmazdır.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən sorğumuza cavabda bildirdilər ki, Azərbaycanın su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur və bütöv regiondakı su ehtiyatının yalnız 15 faizini əhatə edir. Ölkənin yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Yerüstü su ehtiyatları əsasən çaylarda cəmlənmişdir. Çay sularının ehtiyatlarının 67-70%-i qonşu ölkələrin ərazisində, qalanı isə (yerli axım) ölkəmizin daxili çaylarında formalaşır. Çay sularının ümumi təbii ehtiyatları 28,5-30,5 km3, qonşu ölkələrdən transsərhəd çaylarla daxil olan su ehtiyatları 19,0-20,5 km3, yerli axım 9,5-10,0 km3 təşkil edir. Quraqlıq illərdə su ehtiyatları 22,6-27,0 km3-ə qədər azalır. Müvafiq olaraq, bu suların 17,1-14,3 km3 transsərhəd çaylarına aiddir. Kür və Araz çaylarının su ehtiyatları qonşu ölkələrin ərazisində istifadəsi nəticəsində 20% qədər azaldılır. Bu da ölkədə su çatışmazlığının artmasına gətirib çıxarır (ildə təqribən 4-5 km3) və Azərbaycanda su tələbatının ödənilməsində çətinlik yaradır. İqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarımız son onilliklərdə azalmışdır və beynəlxalq iqlim modellərinə əsasən onların gələcəkdə də azalma ehtimalı var. Ölkə əhalisinin artması, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və suvarılan kənd təsərrüfatı sahələrinin genişlənməsi səbəbindən suya olan tələbat artan templə irəliləyir. Son 30 ildə yerli çaylarda 1991-2020-ci illərdə sululuğun 1961-1990-cı illərlə müqayisəli 4%-dən 20 % dək, tranzit çaylarda isə 6%-dən 22 %-dək azalıb.



Bu səbəbdən, Azərbaycanda Xəzər dənizinin suyunun duzsuzlaşdırılması üzrə zavodun yaradılması sahəsində əməkdaşlığa dair layihənin potensial investor qismində iştirakı nəzərdə tutulan "Azərbaycan İnvestisiya Şirkəti" (AİŞ) ASC və dünyada su və su tullantılarının emalı sahəsində tanınmış İsrailin "I.D.E. Water Assets Ltd" ("İDE") şirkəti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, qlobal istiləşmə, su ehtiyatlarının səmərəsiz istifadəsi və dünyada artan quraqlıq içməli suyun istehsalı üçün duzsuzlaşdırma zavodlarından fəal istifadəsinə təkan verib. "IDE" şirkəti 40 ölkədə fəaliyyət göstərməklə, 400-dən çox zavodun tikintisi və istismarı sahəsində 40 illik təcrübəyə malikdir. Şirkət dünyanın ən böyük zavodları daxil olmaqla (Çin, Hindistan, ABŞ, Avstraliya və İsrail) bir sıra irimiqyaslı membran və termal duzsuzlaşdırma zavodlarının tikintisini həyata keçirib. Şirkət İsrail əhalisinin içməli suya tələbatının 70%-ni təmin edir.

Bəs görəsən Xəzər dənizi suyunun duzsuzlaşdırılması üzrə zavodun yaradılması ekoloji baxımdan hansı fayda verəcək?

Texnika elmləri namizədi, dosent, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mühəndis sistemləri və qurğuların tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov "Unikal"a bildirdi ki, ÜST-ün məlumatına görə bu gün dünya əhalisinin 80 faizə qədəri çirkli sudan istifadə edir. Azərbaycan üçün də bu problem aktual olaraq qalmaqdadır. Qarabağ ərazisi nəzərə alınmasa, Azərbaycan Cənubi Qafqazın su baxımdan ən kasıb ölkəsidir. Onun sözlərinə görə, Cənubi Qafqazda içməli su potensialının 62 faizi Gürcüstan, 28 faizi Ermənistan, 10 faizi isə Azərbaycanın payına düşür. Bu da Azərbaycanın su tələbatının təxminən 28-30 faizi deməkdir.

N.Məmmədov deyir ki, belə bir zavod tikilərsə, ölkədə aqrar sektorun da su çatışmazlığı problemi də qismən öz həllini tapar. O, bildirir ki, axıntı sularının duzluluğu yuxarı olduğundan həmin suları təkrar suvarmada istifadə etmək mümkün deyil. Belə bir zavodun yaranması ölkə iqtisadiyyatında, su təchizatında böyük inqilab ola bilər. Axıntı sularını heç olmasa texniki məqsədlərlə istifadə səviyyəsinə çatdırmaq üçün istənilən layihə ölkə iqtisadiyyatına böyük səmərə verə bilər. Belə olan halda içməli suyu ancaq məişətdə istifadə etmək, duzsuzlaşdırılan suyu isə texniki məqsədlərlə - suvarmada, həm də içməli su kimi istifadə etmək olar".

Mütəxəssis onu da bildirir ki, Xəzər dənizinin Azərbaycan hissəsində bir litr suda 14 qram duz olur. Suyun duzdan arındırılmasının müxtəlif yolları var. Suyun miqdarı azaldığı üçün son zamanlar Xəzərdə duzluluq artır. Xəzərə tökülən çayların da sululuğu azalıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dənizdə duzluluğun səviyyəsi öyrənilir. Ekspertlərin fikrincə, bu addım su qıtlığı ilə mübarizədə bizə kömək edəcək, ona görə də dəniz suyunun duzsuzlaşdırılaraq şirinləşdirilməsi vacibdir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## "Audiovizual media mühitində universal jurnalist" mövzusunda keçirilən təlimlər yekunlaşıb

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə telejurnalistlər üçün "Audiovizual media mühitində universal jurnalist" mövzusunda keçirilən təlimlər yekunlaşıb.***

"Unikal" xəbər verir ki, təlimlərə Azərbaycan televiziyalarında fəaliyyət göstərən jurnalistlər cəlb edilib.

Keçirilən təlimlərin məqsədi televiziyada xəbər istehsalının təkmilləşdirilməsi, rəqəmsallaşmanın stimullaşdırılması, audiovizual istiqamətdə xarici bilik və təcrübələrin tətbiqinin genişləndirilməsi və daha keyfiyyətli məzmunun yaradılmasına nail olmaqdır.

4 gün müddətində jurnalistlərə "Əl-Cəzirə" Media Şəbəkəsinin telejurnalisti Mohamed Elatyeb tərəfindən "mobil jurnalistika", "video jurnalistika", "televiziya jurnalistikası", təkbaşına tam televiziya məzmununun hazırlanması üçün öyrənilməli və əldə edilməli olan bacarıqlar, xəbər otaqlarının işləmə mexanizmi, televiziya istehsalı və xəbər dünyasına daxil olan yeni proqram təminatları və s. mövzularda təlimlər keçirilib, interaktiv müzakirə sessiyaları olub, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

Telejurnalistlər üçün keçirilən "Audiovizual media mühitində universal jurnalist" təlim proqramının media sahəsində yeni trendin başlanğıcına, keyfiyyətli kontent yaradılmasına, jurnalistlərin peşəkar inkişafına, xarici təcrübəyə əsaslanan nəzəri biliklərin artırılmasına və yerli mediada tətbiqinin reallaşdırılmasına töhfə verməsi gözlənilir.

## "YAŞAT" təhsil sahəsinə 1 milyon manatdan çox vəsait xərcləyib

***"YAŞAT" Fondu tərəfindən bugünədək şəhidlərimizin ailə üzvlərinin və müharibə əlillərinin təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı istiqaməti üzrə 1 066 234.04 AZN vəsait xərclənib.***




"Unikal" bu barədə "YAŞAT" Fondundan məlumat verilib.

Bildirilib ki, şəhidlərimizin ailə üzvlərinin və müharibə əlillərinin təhsilinə "YAŞAT" Fondunun dəstəyi davam edir.

Qeyd olunub ki, "YAŞAT" Fondu tərəfindən bugünədək təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı istiqaməti üzrə 1 066 234.04 AZN vəsait xərclənib.

Şəhid ailəsi üzvlərinin 281, müharibə əlillərinin isə 57 müraciəti təmin edilib, bu istiqamət üzrə müxtəlif layihələr həyata keçirilib.

# Yazıçılar Birliyinin qurultayına 203 min manat ayrıldı



***Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayının keçirilməsi üçün 203,6 min manat vəsait ayırıb.***

"Unikal" Report-a istinadən xəbər verir ki, bu barədə nazirlikdən məlumat verilib. Bildirilib ki, sözügedən məsələ ilə əlaqədar AYB tərəfindən birbaşa Mədəniyyət Nazirliyinə müraciət olunmayıb.

"Eyni zamanda, qeyd edirik ki, yaradıcılıq ittifaqlarının il ərzində fəaliyyətinin təmin olunması məqsədilə müvafiq maliyyə vəsaitinin ayrılması aidiyyəti qurum tərəfindən həyata keçirilir.

Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycan Yazıçılar Birliyinin XIII qurultayının təşkili ilə bağlı oktyabrın 6-da 203,6 min manat vəsait birliyin hesabına köçürülüb", - nazirlikdən qeyd olunub.

Xatırladaq ki, AYB-in qurultayının bu il sentyabrın 30-da keçirilməsi planlaşdırılsa da, daha sonra təxirə salınmışdı. AYB sədri, Xalq yazıçısı Anar Rzayev qurultayın dəqiq tarixinin açıqlanmamasını vəsait problemi ilə əlaqələndirmişdi: "Pul köçürülən kimi dəqiq vaxt müəyyənləşəcək".

Yazıçıların qurultayının oktyabrın sonunadək keçirilməsi gözlənilir.

# "3-4 azərbaycanlının kirvəsi də olmuşam" - Erməni Xazaryan



***Azadlıq radiosunun erməni bürosu Türkiyə - Ermənistan sərhədində yerləşən Baqaran kəndindən (Hacı Bayram (Sərdarabad)) reportaj hazırlayıb. Türkiyənin Halıkışlak kəndi ilə Baqaranı yalnız ortadan axan Arpaçay çayı ayırır.***

"Qafqazinfo" xəbər verir ki, nəşr kənd sakinlərinin hazırda aktiv şəkildə müzakirə olunan Türkiyə - Ermənistan sərhədinin açılmasına dair məsələ barədə fikirlərini öyrənib.

Kənd sakinlərinin məsələ ilə bağlı fikirləri isə kəskin şəkildə fərqlənir. Belə ki, onlardan bəziləri sərhədlərinin qəti şəkildə açılmasının əleyhinə, digərləri isə bunun lehinə olduğunu bildirib.

Kənd sakinlərindən biri olan Kacik Xazaryan azərbaycanlılarla birgə yaşadığı dövrü xatırlayıb. O qeyd edib ki, Baqaranda 1980-ci illərin sonlarına qədər onlarla azərbaycanlı ailəsi yaşayıb: "Birlikdə toy edirdik. Əsgər yığıncaqları, xeyir və şəri bir yerdə qeyd edirdik. Bölünəsi heç nəyimiz yox idi. Üç-dörd azərbaycanlının da kirvəsi də olmuşam".

Xazaryan qeyd edib ki, 20 il çoban olub, sonra briqadir işləyib, ardınca da kinomexanik. Onun sözlərinə görə, kənddə nümayiş etdirilən filmlərə də ermənilərlə azərbaycanlılar birgə baxar, gülüb, ağlayarmışlar: "Bütün gəncliyimi burda keçirmişəm. Gör nə günə qoyublar! Kinonu oradan verirdim. Hind filmləri zamanı zal ağzına qədər dolarmış. Körpələrdən ağsaqqaladək hamı kinoya gələrdi. İki seriya üçün biletin qiyməti 40 qəpik idi".

Erməni kənd sakini, həmçinin qeyd edib ki, Türkiyə ilə sərhədin açılmasının tərəfdarıdır: "Yollar açılsa, çox yaxşı olar. Türkiyə çox zəngindir".

# Telefon mağazalarını soyan şəxslər tutuldu

***Şirvanda telefon mağazalarından oğurluq edən şəxslər saxlanılıb.***

DİN-in mətbuat xidmətinin Şirvan regional qrupundan "Unikal"a verilən xəbərə görə, Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində iki gün əvvəl şəhər ərazisində yerləşən mobil telefon satışı mağazalarının birindən 11 ədəd mobil telefon, 2 ədəd smart saat, 1 ədəd planşet, eləcə də müxtəlif sayla telefon aksessuarları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri Elbrus Zeynalov və Altay Xeyirxəbərov saxlanılıblar. Dindirilmə zamanı hər iki şəxs törətdikləri cinayət əməlini etiraf ediblər. Saxlanılan şəxslərin ətrafında aparılan əməliyyat tədbirləri nəticəsində onların digər bir cinayətlərinin üstü də açılıb. Araşdırmalar zamanı məlum olub ki, E.Zeynalov və A.Xeyirxəbərov sentyabr ayının əvvəlində də Şirvan şəhəri ərazisində analoji oğurluq hadisəsini törədərək, mağazaların birindən 15 ədəd mobil telefon və 1 ədəd planşet oğurlamaqla zərərçəkmişə 5030 manat maddi ziyan vurublar. Həmin şəxslər hər iki oğurluq hadisəsi zamanı əldə etdikləri qənimətləri isə dəyərindən ucuz qiymətə sataraq əldə etdikləri pulları öz aralarında bölüblər.

Faktla bağlı Şirvan Şəhər Polis Şöbəsinin İstintaq Bölməsində cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

Polis əməkdaşları həmin şəxslərin respublikanın digər bölgələrində də analoji cinayətlərdə iştirakını da istisna etmir. Əgər onların əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, DİN-in "102" xidmətinə, həmçinin Şirvan ŞPŞ-nə müraciət etmələri xahiş olunur.

# Yeni doğulan körpə həkim səhlənkarlığından zədələnib? - TƏBİB-dən açıqlama

***Tovuzda yeni doğulan körpənin səhhətində həkim səhlənkarlığı səbəbindən problemlərin yaranması məsələsi araşdırılır.***



"Unikal" xəbər verir ki, bu barədə TƏBİB-dən məlumat verilib.

Bildirilib ki, 1992-ci il təvəllüdlü J.Y. 04.09.2022-ci il tarixində Tovuz Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib: "38-39 həftəlik hamilə olan pasiyent həmin gün qeysəriyyə əməliyyatı ilə çəkisi 3 500 qram, boyu 52 sm olan körpə dünyaya gətirib. Körpə doğularkən fizioloji sarılığı olub. 07.09.2022-ci il tarixində körpənin zəif qidalanması müşahidə edilib. Bu səbəbdən ona damardaxili infuzion müalicə aparılıb. Bundan sonra körpənin qidalanması bərpa olub, vəziyyəti qənaətbəxş olduğu üçün 10.09.2022-ci il tarixində evə buraxılıb. Ailəsi tərəfindən körpənin səhhətində narahatlıq müşahidə edildiyi üçün bir neçə digər tibb müəssisəsinə müraciət edilib. Sözügedən müəssisələrdə də körpəyə tibbi xidmət göstərilib. Daha sonra 16.09.2022-ci il tarixində K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun Cərrahiyyə şöbəsinə yerləşdirilən körpəyə sağ bazu sümük iltihabı (osteomielit) diaqnozu qoyulub. 17.09.2022-ci il tarixində körpə tibb müəssisəsinin Yenidoğulmuşların patologiyası şöbəsinə köçürülüb. Lazımi müayinə və müalicələrdən sonra 05.10.2022-ci il tarixində ambulator müalicə üçün evə buraxılıb. Körpənin yenidən müayinəyə gətirilməsi barədə ailəsinə məlumat verilib".

"Məsələ TƏBİB rəhbərliyinin nəzarətindədir. Körpənin ailə üzvləri ilə əlaqə saxlanılıb və onlar TƏBİB-ə dəvət edilib. Müvafiq araşdırmalar aparıldıqdan sonra ictimaiyyətə əlavə məlumat veriləcək", - deyə məlumatda qeyd olunub.

# FHN bu qurumun fəaliyyətini dayandırdı

***Fövqəladə Hallar Nazirliyi qayda pozuntuları aşkarlanmış maye qazdoldurma məntəqəsinin istismarını dayandırıb.***



Bu barədə "Unikal"a FHN-dən məlumat verilib.

Qeyd olunub ki, nazirliyin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin müfəttişləri Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi ərazisində fəaliyyət göstərən "Orxan-Vüsal" MMC-yə məxsus maye qazdoldurma məntəqəsində plan üzrə yoxlama aparıb.

Yoxlama zamanı məntəqədə insan həyatı və sağlamlığı üçün təhlükə yarada biləcək pozuntular aşkarlanıb. Belə ki, maye qazdoldurma məntəqəsində istismar olunan tutumların müddətinin bitdiyi, tam texniki müayinələrin aparılmadığı, nəzarət ölçü cihazları və qoruyucu qurğuların yoxlanılmadığı müəyyən edilib.

Aşkar olunan nöqsanların dərhal aradan qaldırılmasının mümkün olmadığı və insan həyatı və sağlamlığı üçün yaratdığı təhlükə nəzərə alınaraq, maye qazdoldurma məntəqəsinin istismarı dayandırılıb.

Bununla yanaşı, Agentliyin müfəttişləri tərəfindən qeyd olunanlarla əlaqədar maye qazdoldurma məntəqəsinin rəhbərliyi və işçiləri ilə profilaktik söhbət aparılıb, aşkarlanmış texniki təhlükəsizliklə bağlı pozuntuların aradan qaldırılması üçün müvafiq tövsiyələr verilib.

Aparılmış yoxlamanın nəticələrinə dair tərtib olunmuş akt pozuntuların aradan qaldırılması üçün müəssisə rəhbərliyinə təqdim edilib.

# AQTA yoxlama apardı

## Hisə verilmiş balıqların istehsalı müəssisəsində nöqsanlar aşkarlandı

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları Göygöl rayonu, Quşqara kəndində fəaliyyət göstərən "Okeanus" MMC-yə məxsus hisə verilmiş balıqların istehsalı müəssisəsində keçirilmiş planlı yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların və istehlakçıların hüquqlarının pozulduğu aşkar edib.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, istehsal sahəsinin sanitar vəziyyətinin qənaətbəxş olmadığı, avadanlıqların korroziyaya davamlı materialdan təşkil edilmədiyi, mal qonşuluğu qaydalarına riayət olunmadığı, istehsal olunan məhsulların etiket məlumatlarında istehsal və son istifadə tarixlərinin düzgün qeyd edilmədiyi müəyyən edilib.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq sahibkar barəsində inzibati protokol tərtib olunub, məhsulların satışa çıxarılmasının qarşısı alınaraq məhv edilib.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır.

# ASC sürüşmə səbəbindən təxirəsalınmaz işlərə başlanıldı

***Yuxarı Şirvan kanalında sürüşmə olan hissələrdə işlərə başlanılıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 64 il öncə istifadəyə verilən Yuxarı Şirvan Kanalı başlanğıcını Mingeçevir Su Anbarından götürür.***

Kanala su baş qurğu vasitəsi ilə ötürülür, maksimum su aparma qabiliyyəti 78 m?/san-dir. 2022-ci ilin əvvəlindən bu günə kimi Yuxarı Şirvan Kanalı vasitəsi ilə anbardan 1148 mln m3 su götürülərək, 1044 mln m3-i istehlakçılara çatdırılıb. Kanal üzərində 129 ədəd sadə və mürəkkəb qurğuşlu hidrotexniki qurğular mövcuddur. Onlardan 36-ı suburaxıcı qapılardır. Kanal öz xətti boyunca səkkiz çayla kəsişir. Onların 6-sı dükerlərlə, 2-i isə akveduklar vasitəsilə həyata keçirilir. Bu çaylar Əlicançay, Türyançay, Göyçay çay, Dəvəbatan çay, Girdiman



çay Nəzirçay və Ağsu çaylarıdır. Kanala 2022-ci ildə daha çox su ötürüldüyündən müxtəlif ərazilərdə sürüşmələr baş verib. Sürüşmələr əsasən kanalın keçdiyi Göyçay və Ağdaş ərazisində qeydə alındığına görə, yaxınlıqdan keçən dəmir yolu və avtomobil yoluna təhlükə yaranıb. Artıq bunun qarşısını almaq məqsədilə Yuxarı Şirvan Kanalı İstismarı İdarəsi tərəfindən təxirəsalınmaz işlərə başlanılıb.

Suvarma məqsədi ilə inşa edilən kanalın 95 km-dən artığı torpaq məcralı, 27 km-i isə beton üzlüklüdür. Bu günə kimi Yevlax ərazisində 3,2 km, Göyçay -İsmayıllı ərazisindən keçən hissədə 15 km, Ağsu - Kürdəmir ərazisindən keçən hisssədə 15 km ərazi lildən təmizlənib. Türyançay və Göyçay çaylarının məcralarında vaxtaşırı sel sularını keçirmək üçün 3870 paqonometr uzunluğunda 90 min m3 məcra tənzimlmə işləri görülüb.

Qeyd edək ki, Yuxarı Şirvan Kanalının uzunluğu 122,2 km-dir. Kanal Şirvan düzünün 10 rayonunda 140 min ha əkin sahəsinə xidmət edir. Bu rayonlar Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Ağsu, Şamaxı, İsmayıllı və Hacıqabuldur.

*Hüseyn*



## Vətən müharibəsi şəhidinin anası vəfat etdi

***Vətən müharibəsində şəhid olan zabitimiz, mayor Natiq İsmayılovun anası Tamara İsmayılova vəfat edib.***

"Unikal" xəbər verir ki, şəhid anası yaşadığı Qəbələnin Bunud kəndində dünyasını dəyişib.

Qeyd edək ki, mayor Natiq İsmayılov Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Pensiyalar bu tarixdə tam ödəniləcək

***Respublika üzrə oktyabrın pensiyalarının ayın 14-də tam ödənilərək yekunlaşdırılması nəzərdə tutulub.***



Bu barədə Dövlət Sosial Müdafiə Fondundan (DSMF) "Unikal"a verilən məlumatda bildirilib.

2022-ci ildə verilməsi nəzərdə tutulan 200 manat maddi yardımın sonuncu rüb üzrə ödəniləcək 50 manatı da oktyabr ayının pensiyalarının üzərinə əlavə olunacaq.

Qeyd edək ki, həmin gün güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin də pensiyaları ödəniləcək.

# Ruslanın Vətən sevgisi

***Şanlı tariximizin unudulmaz səhifəsinə çevrilən İkinci Qarabağ müharibəsində haqq savaşımızda Astara rayon, Ərçivan qəsəbəsində dünyaya göz açmış Ruslan Aslan oğlu Əliyevin də xüsusi payı vardır. Odur ki, Vətən naminə son nəfəsinədək düşmənlə döyüşən igidimiz cismən aramızda olmasa da, mənən diri qalaraq harada bir Günəş müqəddəsliyi var onun sorağı oradan gəlir. Qərinələr boyunca da belə olacaqdır. Hər gələn nəsil Vətəni, doğma torpağı necə sevməyi Ruslandan öyrənər.***

Lap kiçik yaşlardan Vətəninə, yurduna sevdalanan Ruslan orta məktəbdə oxuduğu vaxt həm də Astara Boks Mərkəzində bu idmanla məşğul olur, təlim məşqlərində, rayon və respublika yarışlarında müntəzəm iştirak edir, qazandığı uğurlar el-obada hamının ürəyindən xəbər verir. Boks üzrə Azərbaycan çempionatında ikiqat gümüş və bürünc medalçısı, Azər-



baycan yığma komandasının ən sanballı üzvü kimi yaxşı tanınır. Hər dəfə də işğal olunan Vətən torpaqlarını azad görmək arzusu ilə yarışlara qatılır. 2018-ci ildə əsgərlik yaşına çatanda qəlbində erməni dığalardan intiqam, qisas almaq alovu daha da güclənir...

Ruslan Goranboyda, Tərtər bölgəsində müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirir. Nümunəvi xidməti, təlimlər zamanı əla döyüş keyfiyyətləri onu əsgərlərin, komandirlərin gözündə ucaldır. Hər an silaha sarılıb Vətən torpaqların azadlığı naminə döyüşə hazır olur. Həqiqi xidməti üzüağ başa vuran igid əsgər Ruslanın erməni faşistlərə qarşı vuruşmaq arzusu onu yenidən hərbiyə bağlayır. Sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda "Təki Vətən yaşasın"- deyib ən ağır döyüşə girir. Mərdliklə vuruşur, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etməklə odun-alovun içindən qalib əsgər kimi çıxır. Ruslanın son savaşı 29 sentyabrda Tərtərin Talış kəndində olur. Əsl qəhrəmanlıq nümunəsini göstərən igid ağır yaralanır, Vətən eşqli ürəyi dayanır. Ömrünün 20 ilində qalib şəhid kimi ölməzliyə qovuşur. Adında bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadan şəhid Ruslan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalına layiq görülür.

*Zəfər Orucoğlu, AJB üzvü*

## Koronavirusa yoluxma 10 faiz azalıb - ÜST

***Son bir həftə ərzində dünyada 2,8 milyondan çox insan koronavirus infeksiyasına yoluxub, 9 mindən artıq insan isə dünyasını dəyişib.***

"Unikal"ın məlumatına görə, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik bülletenində qeyd olunub.

Məlumata əsasən, bundan öncəki həftə ilə müqayisədə yoluxma hallarının sayı 10 faiz, ölüm hallarının sayı isə 1 faiz azalıb.

Qeyd edək ki, oktyabrın 12-si üçün koronavirusa yoluxanların sayı 619 770 633, ölənlərin sayı isə 6 539 058 nəfərə çatıb.

# Könüllülər su ehtiyatlarının qorunmasına dəstək verəcək

***"Meliorasiya könüllüləri" su ehtiyatlarının qorunması və meliorasiya sahəsində tədbirlərin təşkilinə dəstək verəcəklər.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, oktyabrın 12-də Meliorasiya Elmi-Tədqiqat İnstitutunda "Davam" Gənclər Hərəkatının rəhbərliyi ilə görüş keçirilib.

Görüşdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müşaviri Əsəd Şirinov, Meliorasiya Elmi-Tədqiqat İnstitutunun direktoru Mir Mövsüm Dadaşev, "Davam" Gənclər Hərəkatının sədri Nihad Allahyarlı, "Davam" Gənclər Hərəkatının sədr müşaviri Niyaz Əliyev, institutun əməkdaşları, təşkilatın fəalları və könüllülər iştirak ediblər.

Meliorasiya Elmi-Tədqiqat İnstitutu və "Davam" Gənclər Hərəkatının birgə fəaliyyət gündəliyi müzakirə edilib və qarşılıqlı əməkdaşlığın perspektivləri barədə danışıqlar aparılıb. Daha sonra əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə tərəflər arasında memorandum imzalanıb.

Memoranduma əsasən, su ehtiyatlarının qorunması, sudan səmərəli istifadə edilməsi, həmçinin meliorasiya sahəsində tədbirlərin təşkilində könüllü dəstəyinin göstərilməsi üçün "Meliorasiya könüllüləri" Təşəbbüs Qrupunun yaradılması və bu qrupun fəaliyyətinin tənzimlənməsi üçün institut ilə davamlı işin aparılması qərarlaşdırılıb. Belə ki, formalaşdırılan Təşəbbüs Qrupunun "Davam" Gənclər Hərəkatı tərəfindən əlaqələndiricisi Niyaz Əliyev, Meliorasiya Elmi -Tədqiqat İnstitutu tərəfindən isə "Beynəlxalq əlaqələr, marketinq və innovasiya" şöbəsinin müdiri Səməd Rzazadə müəyyənləşdirilib.

Görüş çərçivəsində Meliorasiya Elmi-Tədqiqat İnstitutunun saytının təqdimatı da keçirilib.

Sonda sual-cavab sessiyasında gənclərlə fikir mübadiləsi aparılıb, onların təklifləri dinlənilib.

*Hüseyn*

## Şagirdlərin elektron yerdəyişməsi başlayır

***Oktyabrın 17-si saat 11:00-dan etibarən şagirdlərin elektron yerdəyişməsi prosesinə start veriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov məlumat verib.

# "Putin 2024-cü ildən sonra da prezident olaraq qalmalıdır"



***Rusiyanın keçmiş baş nazir Sergey Stepaşin Rusiya prezidenti Vladimir Putinin 2024-cü ildə keçiriləcək prezident seçkilərində iştirakını yüksək qiymətləndirib.***

"Unikal" xəbər verir ki o, bu barədə "RİA Novosti"yə müsahibəsində danışıb.

Onun sözlərinə görə, hazırkı prezidenti əvəz etmək olmaz. "Putin 2024-cü ildən sonra da prezident olaraq qalmalıdır. O, Rusiyanın lideri olaraq işinə davam etməlidir".

***Gülayə***

# "Rusiyada terror aktları davam edərsə..." - Volodin



***"Kiyev terror aktları törətməkdə davam edərsə, Rusiya onlara daha sərt cavab verəcək".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin sosial şəbəkə hesabında yazıb.

O vurğulayıb ki, dünyada heç kim terrorçularla danışıqlar aparmır və təxribatın bütün təşkilatçıları və icraçıları mütləq tapılacaq.

"Kim müqavimət göstərsə, məhv edilir".

Volodin, həmçinin Rusiya Silahlı Qüvvələrinin enerji obyektlərinin vurulduğu regionları qeyd edib və Ukraynanın nəticədə istehsal gücünün 50%-ə qədərini itirdiyini bildirib.

Oktyabrın 10 və 11-də Rusiya Silahlı Qüvvələri Ukraynadakı hərbi və enerji obyektlərinə zərbələr endirib. Ukraynanın energetika naziri German Qaluşenko bildirib ki, bu zərbələr nəticəsində ölkənin enerji infrastrukturunun təxminən 30%-i zədələnib. Prezident Volodimir Zelenski beynəlxalq tərəfdaşlardan bərpa üçün 2 milyard dollar istəyib.

# "Sərhədlərin delimitasiyası ilin sonuna qədər aparılacaq" - Qriqoryan

***Vaşinqtonda Sallivan və Hacıyevlə görüşdə biz sülh müqaviləsinin qrafikini, yəni ilin sonuna qədər müqavilənin olmasını müzakirə etdik. Həmçinin delimitasiya məsələsi ilə bağlı razılıq əldə olunub ki, delimitasiya ilin sonuna qədər aparılacaq.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib.

"1929-cu ildə delimitasiya prosesi getdi, Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası oldu. Qarşılıqlı razılığa gəlmək bizə qalır ki, bunu əsas götürək, 29 min 800 kvadrat kilometr torpaqlarımızı təmin edirik", - o bildirib.

Təhlükəsizlik Şurasının katibi blokadanın aradan qaldırılması məsələsinin də müzakirə olunduğunu bildirib.

***Ağarza Elçinoğlu***

# 200-dən çox erməni saytı sındırıldı

***Bu gecə - 13 oktyabr tarixində 200-dən çox erməni saytı sındırılıb.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın İnformasiya təhlükəsizliyi üzrə mütəxəssisi Samvel Martirosyan öz "Facebook" səhifəsində yazıb.

O, bunu azərbaycanlıların etdiyini iddia etsə də, ortada bununla bağlı hər hansı bir fakt yoxdur: "Gecə azərbaycanlılar 200-dən çox erməni saytını, o cümlədən Artsaxın, Gümrü bələdiyyəsinin, Cənubi Qafqaz dəmir yolunun saytlarını sındırıblar".

## ELAN

**Bakı Dövlət Rabitə və Nəqliyyat kollecinin tələbəsi İbadlı Cəmilə aid Kompyuter Sistemləri və kompleksləri fakultəsinin tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

# "Ədalətli sülh diplomatiya ilə əldə oluna bilər" - Ərdoğan

***"Bizim hədəfimiz Ukraynada axan qanı dayandırmaqdır".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında çıxışı zamanı deyib.



Ukrayna böhranının regional və qlobal təsirlərindən danışan Türkiyə Prezidenti bildirib ki, artıq bu təsirləri hər kəs hiss edir:

"Ədalətli sülh diplomatiya ilə əldə oluna bilər. Ukraynada sülhün əldə olunması istiqamətində səylərimizi hər kəs qiymətləndirir. Taxıl sazişi, əsir mübadiləsi səylərimizin nəticəsidir".

# "Rusiya Azərbaycanla Ermənistan arasında qəsdən təxribat törədir" - Makron

***Fransa prezidenti Emmanuel Makron Rusiyanı Qafqaz regionunda və onun hüdudlarından kənarda sabitliyi pozmaq üçün Ermənistan və Azərbaycan arasında son toqquşmaları qəsdən törətməkdə ittiham edib.***

"Unikal" "Reuters"ə istinadən xəbər verir ki, Ermənistan və Azərbaycan arasında 2020-ci ildən bəri ən şiddətli döyüşlər sentyabr ayında baş verib, nəticədə 200-dən çox insan həlak olub.

Makron "France 2" televiziyasına müsahibəsində bildirib ki, Moskva son aylarda Azərbaycanın xeyrinə gərginliyi artırıb: "Son iki ildə sərhəddə baş verənlər... Sərhədin təhlükəsizliyini təmin etmək üçün orada 5 min rus əsgəri olmalı idi, (amma) ruslar bir neçə əsrlik tarixi olan bu münaqişədən istifadə etdilər. Baş verənləri görürsünüzmü? Bu, sabitliyi pozmaq cəhdidir, o, hamımızı sabitsizləşdirmək üçün Qafqazda iğtişaşlar yaratmaq istəyir", - Makron bildirib.

Keçən həftə Makron Praqada Ermənistanın baş naziri Nikol Paşinyan, Azərbaycan prezidenti İlham Əliyev və Avropa Şurasının prezidenti Şarl



Mişellə görüşüb və bu görüş zamanı vəziyyəti qiymətləndirmək üçün Aİ-nin mülki missiyasının ölkələrin sərhədinə göndərilməsi qərara alınıb.

***Ağarza Elçinoğlu***

# "Putin gözlənildiyindən daha zəif çıxdı" - Yan Lipavski

***"Putin gözlənildiyindən daha zəif çıxdı. Rusiyada zəif lider olmaq çox vaxt şəxsi sonluqla nəticələnir".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Çexiyanın xarici işlər naziri Yan Lipavski deyib.

Yan Lipavski bəyan edib ki, Rusiya prezidenti Vladimir Putin, populyar inancın əksinə olaraq, Rusiya-Ukrayna müharibəsi ilə "daha ??zəif" olub.

Almaniyanın keçmiş kansleri Angela Merkel dövrünün və onu müşayiət edən Rusiyaya qarşı dost münasibətinin



sona çatdığını qeyd edən Lipavski, "Avropa Rusiyaya münasibətdə keçmişin səhvlərini təkrarlamaqdan çəkinməlidir. Merkelin vaxtı bitdi. Rusiyaya qarşı bu siyasət də bitdi. Rusiya mülki əhaliyə raket zərbələri endirərkən, Avropaya qarşı enerji müharibəsi apararkən siz həmin ölkə ilə münasibətləri necə yaxşılaşdırmaq istəyirsiniz? Avropa Rusiyanın təsirini məhdudlaşdırmağı öyrənməlidir", - deyə ifadə edib.

***Gülayə Mecid***

# Rusiya nümayəndələrinin Parisdəki sərgidə iştirakına icazə verilmədi

***Rusiya nümayəndələrinin Parisdə keçirilən kənd təsərrüfatı sərgisində iştirakına icazə verilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın Fransadakı səfiri Aleksey Meşkov məlumat verib.

"Bu həftə Parisdə kənd təsərrüfatı sərgisi (CIAL Paris) keçiriləcək. Birincisi, Rusiya nümayəndələrinə bu sərgidə iştirak etmək üçün onlayn qeydiyyatdan keçmək imkanı belə verilmədi və bizim təşkilatçılara birbaşa müraciətimizdə sərgidə rusiyalı ziyarətçilərin gözlənilmədiyi açıqlandı", - məlumatda deyilir.

***Ağarza Elçinoğlu***



# Şəhid Arif Qeybiyevin xatirəsinə həsr olunmuş şose qaçışı üzrə ikinci ölkə yarışı





***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası ilə birgə təqvim planına uyğun olaraq Astara Dənizkənarı Park Bulvar Kompleksində Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin 30 illik yubileyi çərçivəsində Şəhid Arif Qeybiyevin xatirəsinə həsr olunmuş şose qaçışı üzrə II ölkə yarışı keçirildi.***

Yarışın açılış mərasimin başlanğıcında Dövlət Himni oxundu, Azərbaycanının ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladların xatirəsi bir dəqiqəlik sükutla yad edildi . Sonra Respublikası Gənclər və İdman Nazirliyinin nümayəndəsi Sevda Mirzəyeva, Azərbaycan Atletika Federasiyasının baş katibi, Respublikanın əməkdar məşqçisi Məhərrəm Sultanzadə , Azərbaycan Atletika Federasiyasının baş məşqçisi, Azərbaycan Respublikasının bədən tərbiyəsi və idman xadimi, Azərbaycan Respublikasının əməkdar məşqçisi Bəhruz Salehli, Astara rayon Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən Rufan Şirinov, qalib şəhid anası Rəna Quliyeva çıxış edib bildirdilər ki, şəhid idmançı Arif Qeybiyev 6 iyun 1997-ci ildə Astara rayonunun Səncərədi kəndində anadan olmuşdur. O, 3 km məsafəyə qaçışda 2 qat Azərbaycan çempionu və gümüş medalçısı, Azərbaycan Kubokunun 1500 metr məsafəyə qaçışda qızıl, 800 metr məsafəyə qaçışda gümüş medalçısı, Avropa Təsnifat yarışlarının iştirakçısı olmuşdur. Arif Müddətdən Artıq Hərbi Xidmət qulluqçusu və tankçı kimi Vətən Müharibəsinin ilk günündə döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır . Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", Fizulinin və Xocavəndin azadlığına görə medallarına layiq görülür. Həm də qalib şəhidin idmançı kimi yüksək nailiyyətləri, döyüşlərdə qəhrəmanlığı və yüksək insani keyfiyyətləri yaddaşlarda və Azərbaycan tarixində əbədi qalacaqdır.

16 komandanın-Bakı ,Gəncə, Bərdə, Cəlilabad, Lənkəran, Astara, Biləsuvar, Lerik, Yardımlı, Xaçmaz, Xızı, İsmayıllı, Neftçala, Laçın şəhər və rayonlarını təmsil edən 150 idmançının qatıldığı yarışın qaydaları barədə yarışın icraçı direktoru, Azərbaycan Respublikasının əməkdar məşqçisi Kamal Əhmədov, yarışın baş hakimi, Azərbaycan Respublikasının əməkdar məşqçisi Rəhim Xəlilov, yarışın baş katibinin müavini, Azərbaycan Atletika Federasiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Respublika dərəcəli hakim Kənan Məhərrəmov idmançılara və nümayəndələrə məlumatlar verib yarışlar start götürdü. Əvvəlcə 2007-2008-ci il təvəllüdlülər arasında qızlar 300metr, oğlanlar 500metr, sonra 2005-2006-cı il təvəllüdlər arasında 500 metr məsafəyə qızlar, 1000 metr məsafəyə oğlanlar mübarizə apardılar.

Yarış başa çatandan sonra fəxri yerlər tutan qalib idmançılar Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Atletika Federasiyasının tərəfindən diplom, medal və hədiyyələr ilə təltif olundular.

***Zəfər Orucoğlu, AJB üzvü***



# "Qarabağ" "Olimpiakos"la heç-heçə oynayıb

***Azərbaycan çempionu "Qarabağ" növbəti avrokubok oyununu keçirib.***

"Unikal" xəbər verir ki, Qurban Qurbanovun yetirmələri Avropa Liqasının qrup mərhələsində II dövrəyə start verib.

Ağdam klubu IV turda "Olimpiakos"u qəbul edib. Qarşılaşma "Qarabağ"ın üstünlüyü ilə keçib.

Ardıcıl hücumlar təşkil edən ağdamlılar Ellada təmsilçisinin müqavimətini qırmaqda çətinlik çəkib. Görüş qolsuz heç-heçə ilə başa çatıb.

"Qarabağ" bununla da ardıcıl 3-cü quru oyununu keçirib. Təmsilçimiz bunadək evdə "Nant", səfərdə "Olimpiakos"u eyni - 3:0 hesabı ilə üstələyib.

Turun digər görüşü Fransada keçirilib. Qrupun lideri "Frayburq" səfərdə "Nant"la qarşılaşıb. Almaniya klubu qrupda ardıcıl 4-cü qələbəsini qazanıb - 4:0.

Qeyd edək ki, növbəti turun matçları oktyabrın 27-də keçiriləcək. "Qarabağ" Fransada "Nant"ın qonağı olacaq, "Frayburq" Almaniyada "Olimpiakos"u sınağa çəkəcək.

# Daha iki komanda pley-offa vəsiqəni təmin etdi




***UEFA Çempionlar Liqasının qrup mərhələsinin IV turunda daha iki oyun keçirilib.***

"Unikal" xəbər verir ki, A qrupunda "Napoli" İtaliyada Niderland "Ayaks"ını qəbul edib.

Rəqibini 4:2 hesabı ilə məğlub edən meydan sahibləri sona 2 tur qalmış pley-offa vəsiqəni rəsmiləşdiriblər.

B qrupunda isə Madrid "Atletiko"su İspaniyada Belçika "Brügge"si ilə üz-üzə gəlib. Görüş qolsuz heç-heçə ilə başa çatıb. Bu nəticə ilə meydan sahibləri vaxtından əvvəl 1/8 finala yüksəliblər.

# Yığma komandamız Avropa birinciliyində iştirak edəcək

***15-25 oktyabr tarixlərində Albaniyanın Dürres şəhərində yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyi keçiriləcək.***

"Unikal" xəbər verir ki, yarışda 37 ölkədən 416 atlet (194 qadın və 222 kişi) iştirak edəcək. Medallar uğrunda mübarizəyə Azərbaycan yığma komandasının üzvləri də qoşulacaqlar. Onlar aşağıdakılardır:

U-20

Tehran Məmmədov (61 kq), Ravin Alməmmədov (67 kq), Ömər Cavadov və Murad Əliyev (hər ikisi - 73 kq), Tarmenxan Babayev (96 kq), Əli Şükürlü (109 kq), Rəhman Kazımov (109 kq).

U-23

İsa Rüstəmov (67 kq), Füqan Əliyev (81 kq).

# "Minyole "Qarabağ" kabusunu unutdurdu"



***İspaniyanın "Marca" nəşri ötən gecə "Atletiko"nun (Madrid) Çempionlar Liqasının qrup mərhələsinin 4-cü turunda "Brügge" (Belçika) ilə 0:0 hesablı heç-heçəsi ilə bağlı yazı hazırlayıb.***

Qol.az xəbər verir ki, yazıda "Atletiko"nun "Brügge" ilə 2 oyunun heç birində qol vura bilmədiyi xüsusi qeyd olunub. Həmçinin məqalədə dünənki matç "Atletko"nun Çempionlar Liqasının 2017/18 mövsümündə qrup mərhələsində "Qarabağ"la görüşləri (0:0, 1:1) ilə də müqayisə olunub:

"Düzdür, "Atletiko"nun hələ evdə "Bayer"lə və səfərdə "Portu" ilə oyunları var. Komanda möcüzəyə ümid etməlidir. Lakin "Atletiko"nun Çempionlar Liqasının qrup mərhələsində "Qarabağ"la oyunlardan xoşagəlməz xatirələri var".

Yazıda "Brügge"nin qapıçısı Simon Minyolenin oyunu da vurğulanıb. Hətta Məqalələyə"Minyole "Qarabağ" kabusunu unutdurdu" başlığı verilib.

Qeyd edək ki, "Atletiko" 3-cü turda "Brügge"yə 0:2 hesabı ilə uduzub, dünən isə 0:0 hesablı heç-heçə edib.

# Şəhriyar Məmmədyarov 150 min dollarlıq turnirdə



***Azərbaycan milli komandasının üzvü Şəhriyar Məmmədyarov "Meltwater Champions Chess Tour" onlayn şahmat seriyasının səkkizinci mərhələsində çıxış edəcək.***

Turnirdə seriyanın təşkilatçılısı Maqnus Karlsendən başqa 15 şahmatçı mübarizə aparacaq. Bunlar həmyerlimiz Şəhriyar Məmmədyarov, Niderland təmsilçisi Aniş Giri, Hindistan şahmatçıları Qukeş, Arcun Eriqaisi, Pentala Harikrişna, Vidit Santoş və Aditya Mittal, macar Riçard Rapport, polşalı şahmatçı Yan-Kşıştof Duda, özbək Nodirbek Abusattarov, Almaniya şahmatçısı Vinsent Keymer, ispan David Quyarro, isveçli Nils Qrandelius, Kanada təmsilçisi Erik Hansen və ABŞ şahmatçısı Daniel Narodskidir.

Qeyd edək ki, ümumi mükafat fondu 150 min dollar olan turnirin qrup oyunlarından sonra ilk səkkiz yeri tutacaq şahmatçı pley-offa vəsiqə qazanacaq.

"Aimchess Rapid" adlanan turnir oktyabrın 14-dən 21-dək keçiriləcək.